RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 25 (8341) CÜMƏ AXŞAMI, 6 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Regional proqramlar ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə xidmət edir

Danılmaz faktdır ki, ölkənin hərtərəfli inkişafında 2004-cü ildə qəbul edilən regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı mühüm rol oynadı. Belə ki, həmin proqramın icrası sayəsində bölgələrin sosial-iqtisadi siması kökündən dəyişməyə başladı. Proqramın icrası sosial-iqtisadi, istehsal, emal, kənd təsərrüfatı, turizm və digər sahələrdə minlərlə obyektin tikintisi ilə müşayiət olundu.

Dövlət başçısı fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda 2004-cü ildə qəbul edilən ilk dövlət proqramını tarixi hadisə adlandırdı. Qeyd etdi ki, bu sənədin qəbulu vacib idi. Ona görə ki, həmin dövrdə regionlarda sosial-iqtisadi vəziyyət qənaətbəxş deyildi. Bunu aradan qaldırmaq üçün mühüm dövlət proqramlarının qəbuluna zərurət yarandı.

Prezident İlham Əliyev həmin konfransda qəbul edilən proqramların ölkənin hərtərəfli inkişafındakı əhəmiyyətini vurğulayaraq bildirmişdir: "Deyə bilərəm ki, 2003-cü ildən bugünə qədər bütövlükdə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artmışdır. Bu, dünyada rekord göstəricidir. Bütün statistik məlumatlar araşdırıla bilər, inanmıram ki, buna bənzər artım tempi olsun. Bu 16 il ərzində sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarər dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artmışdır... Son 16 ildə orta əməkhaqqı 11 dəfə, orta pensiya 8 dəfə artmışdır, 300 mindən çox məcburi köçkünə, 6700 şəhid ailəsinə evlər, mənzillər verilmişdir".

Sözsüz ki, iqtisadi və sosial uğurların əldə edilməsində regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramının qəbul edilməsinin mühüm əhəmiyyəti var.

Məlumdur ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları qəbul edilənədək bölgələrdəki infrastrukturun səviyyəsi aşağı idi. Belə ki, yollar bərbad vəziyyətdə idi, qaz və işıq xətləri sıradan çıxmışdı, bununla yanaşı, suvarma sistemləri baxımsızlıqdan yararsız vəziyyətə düşmüşdü. Heç kəs unutmayıb ki, həmin dövrdə qaz və işığın olmaması, işsizlikdən və digər sosial səbəblərdən bölgələrdə yaşayan insanlar Bakıda yaşamağa üstünlük verirdilər. Bölgələrdə bu istiqamətdə aparılan işlərin sayəsində hazırda nəinki paytaxta axın var, əksinə, gələnlərin bir çoxu regionlara qayıdır. Ona görə ki, bölgələrdə insanın rahat yaşaması üçün bütün sosial infrastruktur mövcuddur və yeni iş yerləri yaradılıb. Öz evində hər cür sosial şəraitə malik, üstəlik də işi olan bölgə əhalisinin başqa yerə getməyə ehtiyacı qalmır.

Ölkə üzrə qazlaşdırma prosesi uğurla davam etdirilir. Qazlaşdırmanın səviyyəsi ölkə üzrə 96 faizə çatıb. Belə uğur dünya üzrə yüksək göstərici sayılır. 2003-cü ildə qazlaşdırmanın səviyyəsi 51 faiz idi. Əksər rayon və kəndlərdə əhali mavi yanacaqla təmin edilmirdi. İndi elə rayon yoxdur ki, orada qazlaşdırmanın səviyyəsi 70 faizdən aşağı olsun, əksər rayon və şəhərlərdə bu rəqəm 95 və ya 100 faizdir.

Ötən il 1300 kilometr avtomobil yolu salınıb, baxmayaraq ki, 1000 kilometr avtomobil yolunun çəkilməsi nəzərdə tutulmuşdu. Azərbaycan avtomobil yollarının keyfiyyətinə görə dünyada 27-ci yerdə qərarlaşıb. Bu da bir çox inkişaf etmiş ölkələrdən yüksək pillədə olmağımızdır. Azərbaycanda 7 aeroport tikilib ki, onların 6-sı beynəlxalq əhəmiyyətlidir. Davos hesabatında ölkəmiz hava xidmətlərinə görə 11-ci yerdə qərarlaşıb. Heydər Əliyev Beynəlxalq Aeroportu artıq beşulduzlu aeroport kimi tanınır. Dünyada belə aeroportların sayı təqribən 10-a yaxındır. Onlardan biri Heydər Əliyev Beynəlxalq Aeroportudur.

Regionlarda həyata keçirilən infrastruktur layihələri həm iqtisadi, həm də sosial xarakterlidir. Bəzi hallarda bir layihə hər ikisini özündə ehtiva edir. Həyata keçirilən meliorativ layihələr sosial-iqtisadi infrastruktur layihələri içərisində önəmli yer tutur. İnfrastruktur layihələri dövlət investisiya proqramı hesabına icra edilir. Yəni dövlət bu sahəyə vəsait qoymaqla həm ölkənin inkişafını, həm də insanların sosial rifahının yaxşılaşmasını təmin edir. Kəndlərdə su təminatını yaxşılaşdırmaq üçün bu illərdə 1500-dən çox artezian quyusu qazılıb, cari ildə də bu proses davam edəcək. Ölkə üzrə həyata keçirilən meliorativ tədbirlər sayəsində 80 min hektar torpağa suvarma suyunun verilməsi təmin edilib, 300 subartezian quyusu qazılıb. Sözsüz ki, bu sahədə görülən işlər kənd təsərrüfatının inkişafına öz müsbət təsirini də göstərir. Bunun sayəsində kənd təsərrüfatında istehsalın həcmi rekord həddə - 7 faizdən çox artıb. Bitkiçilikdə isə bu rəqəm 10 faizdən çoxdur. Bu gün qeyri-neft sektorunda ən çox ixrac edilən üç məhsuldan ikisinin kənd təsərrüfatına aid olması görülən işlərin nəticəsidir.

İcra edilən infrastruktur layihələrində təhsil və tibb müəssisələrinin çəkisi də az deyil. Dövlət bu sahəyə xüsusi diqqət göstərir. Çünki əhalinin sağlamlığı və savadlı olması bu sahədə sosial infrastrukturun yüksək olmasından asılıdır. Keçən il bu məqsədlə 84 məktəb və 60 tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib. Xüsusilə modul tipli məktəblərin tikilməsi ucqar dağ kəndlərində təhsilin inkişafına müsbət təsir göstərir. Belə ki, kiçik və yığcam olan belə məktəblər ölkəmizin bütün ucqar kəndlərində quraşdırılaraq tələbatı ödəyib.

Xüsusi əhəmiyyət daşıyan infrastruktur layihələrindən biri də Bakıətrafı dəmir yolu xəttinin çəkilməsidir. Əvvəllər mövcud olan dəmir yolu nəqliyyatı müasir dünya tələbləri səviyyəsində bərpa edilərək paytaxt ətrafında yerləşən əhalinin ixtiyarına veriləcək. Cari ildə Bakıətrafı dəmir yolunun çəkilişinin əsas mərhələsi başa çatacaq, yeni dairə birləşdiriləcək. Eyni zamanda, dəmir yolu xətti olmayan qəsəbələrə də yeni dəmir yolu xətlərinin çəkilməsi nəzərdə tutulub. Bu, paytaxtda həm nəqliyyat sıxlığını aradan qaldıracaq, həm də onun ekologiyasına müsbət təsir göstərəcək.

***"Azərbaycan"***

# *Mövlud ÇAVUŞOĞLU:* "Biz bir-birimizi dəstəkləməyi Sizdən öyrəndik, öyrənirik"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, hörmətli Mövlud bəy. Sizi yenidən görməyimə çox şadam. Sabah Bakıda Xarici İşlər nazirləri səviyyəsində çox önəmli toplantı keçiriləcəkdir. Bu, Zirvə Görüşündən sonra Xarici İşlər nazirlərinin Bakıda keçirilən birinci toplantısıdır. Bildiyiniz kimi, keçən ildən başlayaraq Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürüb. Biz çalışacağıq ki, bir il ərzində bu təşkilatın sədri kimi bütün üzv ölkələrin dəstəyi ilə fəal iş görək və bu ölkələr arasındakı əməkdaşlığı, dostluğu, qardaşlığı daha da möhkəmləndirək. Eyni zamanda, sizin səfəriniz yaxşı fürsətdir ki, biz ikitərəfli məsələləri bir daha müzakirə edək. Biz sizinlə bu yaxınlarda Davosda da görüşdük. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir. Yaxın gələcəkdə Bakıda Türkiyə-Azərbaycan Strateji Əməkdaşlıq Şurasının toplantısı keçiriləcəkdir və hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan bizim qonağımız olacaqdır.

Əminəm ki, bu il də Türkiyə-Azərbaycan əlaqələri uğurla inkişaf edəcək. Keçən il çox böyük uğurlarımız olubdur və birlikdə TANAP-ın Avropa sərhədinə çatdırılmasını qeyd etdik. Bundan başqa, bir çox önəmli layihələr uğurla icra edilir. O ki qaldı Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətinə, indi bu fəaliyyət daha da genişmiqyaslıdır və artıq bir çox mənbələrdən bu yol vasitəsilə yüklər Avropa istiqamətinə və Asiya istiqamətinə göndərilir. Əminəm ki, bu yolun önəmi getdikcə artacaq və bu, bizim birgə uğurlu layihəmizdir.

Fürsətdən istifadə edərək bu yaxınlarda Çindən Azərbaycan vətəndaşlarını təxliyə etdiyinizə görə sizə dərin minnətdarlığımı bildirirəm. Bu, Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. Siz Azərbaycan vətəndaşlarına öz vətəndaşlarınız kimi münasibət göstərdiniz və göndərilən təyyarəyə onları mindirib sağ-salamat Türkiyəyə - onların doğma vətəninə gətirdiniz. Əlbəttə ki, Azərbaycanda bu addım, bu hərəkət çox yüksək qiymətləndirilir.

Eyni zamanda, keçən ay Strasburqda Avropa Şurası Parlament Assambleyasının toplantısında Türkiyə nümayəndələri tam heyətlə Azərbaycanın haqq işinə öz dəstəyini göstərmişlər, bir daha həmrəylik göstərmişlər.

*Ardı 2-ci səh.*

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Xalq artisti Əlibaba Məmmədovu təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Xalq artisti Əlibaba Məmmədovun 90 illik yubileyi və "Şərəf" ordeni alması münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Dərin tarixi köklərə malik Azərbaycan xanəndəlik məktəbinin layiqli davamçısı, Azərbaycan Respublikasının Xalq artisti Əlibaba Məmmədovu 90 illik yubileyi və "Şərəf" ordeni ilə təltif olunması münasibətilə səmimi-qəlbdən təbrik edirəm!

Özünəməxsus ifa üslubu, məlahətli səsi və yüksək səhnə mədəniyyəti Əlibaba Məmmədova bütün xalqımızın böyük sevgi və hörmətini qazandırmışdır. Zəngin təcrübəsindən istifadə edərək yeni xanəndələr nəslinin yetişdirilməsi üçün əlindən gələni əsirgəməyən Əlibaba Məmmədovun muğam ifaçılığı məktəbinin inkişaf etdirilməsində böyük xidmətləri var.

Bu əlamətdar gündə sevimli xanəndəmizə ən xoş arzularımı çatdırır, ona möhkəm can-sağlığı və doğma və yaxınlarının əhatəsində firavan həyat arzulayıram".

9 fevral Milli Məclisə seçkilər günüdür

# Məntəqələr seçkilərə tam hazırdır

Ölkəmizin həyatında mühüm əhəmiyyət kəsb edən Milli Məclisə keçiriləcək seçkilərə sayılı günlər qalıb. Seçkilərin demokratik və şəffaf keçməsi üçün Gəncədə fəaliyyət göstərən 4 seçki dairəsində də geniş hazırlıq işləri görülüb. Başqa sözlə, seçicilərin sərbəst şəkildə istədikləri namizədə səs verməsi üçün məntəqələrin hamısında normal şərait yaradılmışdır.

37 saylı Nizami birinci (Gəncə) dairə seçki komissiyasının sədri Seymur Hüseynov görülən işlərlə bağlı dedi ki, 32 min 899 nəfər seçicimiz var. Dairə üzrə bir mandat uğrunda 10 nəfər mübarizə aparır. Onlardan iki nəfəri siyasi partiyaları təmsil edir. Səkkiz nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülüb. 10 məntəqədə veb-kamera quraşdırılmışdır. Seçki günü internet istifadəçiləri ölkə daxilində, həm də ölkə xaricindən səsverməni izləmək imkanına malik olacaqlar.

Seçkiləri müşahidə etmək üçün 562 nəfər qeydiyyatdan keçmişdir. Müşahidəçilər Böyük Qurtuluş, Yeni Azərbaycan, Bütöv Azərbaycan Xalq Cəbhəsi, Vətəndaş Həmrəyliyi və Demokratik İslahatlar partiyalarının üzvləridir.

*Ardı 4-cü səh.*

# Bəşəriyyəti dəyişdirəcək inqilab

## Prezident yeni hədəfi müəyyənləşdirdi: 4-cü sənaye inqilabında Azərbaycan lider olmalıdır

"Biz bilirik ki, Siz qarşıya hədəf qoyanda onu həyata keçirirsiniz. Düşünürəm ki, Azərbaycan dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacaq".



Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı bu sözlər Davosdakı görüş zamanı xüsusi diqqət çəkdi.

Görüşdə Dünya İqtisadi Forumunun Azərbaycanda regional mərkəzinin yaradılması haqqında niyyət protokolu imzalandı. Sənədə əsasən forumun ölkəmizdə afilə edilmiş regional mərkəzi təsis ediləcək. O da vurğulandı ki, bu cür mərkəzlər çox məhdud sayda ölkələrdə yaradılır və onların əsas məqsədi dördüncü sənaye inqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir.

Xatırladaq ki, hələ ötən il Azərbaycan hökuməti ilə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında ilk dəfə olaraq əməkdaşlığın təməli qoyuldu. Bu məqsədlə Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında əməkdaşlıq sazişinin təntənəli mübadiləsi həyata keçirildi. Prezident İlham Əliyev Azərbaycan hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında əməkdaşlıq sazişinin vacibliyini qeyd edərək bəyan etmişdi ki, Azərbaycan dördüncü sənaye inqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcək.

Bəs dördüncü sənaye inqilabı, ümumiyyətlə, sənaye inqilabları nədir? Bütün dünyanın diqqət mərkəzində olan bu prosesin əsas perspektivləri və təhlükəli xüsusiyyətləri nələrdir? Qarşıda bizi nə gözləyir?

*Ardı 5-ci səh.*

# Pambıqçılığın inkişafı emal sənayesinin yaradılması ilə uzlaşdırılmalıdır

## Bu, iqtisadiyyatın şaxələndirilməsi, ixracın artması, yeni iş yerləri və əlavə gəlirlər deməkdir

Tənəzzülə uğramış, az qala unudulmuş kənd təsərrüfatı sahələrinin yenidən dirçəldilməsi, bunun üçün ardıcıl əməli tədbirlərin həyata keçirilməsi aqrar sektorda məhsul istehsalını ildən-ilə artırır. İstehsal artdıqca emal sənayesinin inkişafı məsələsi də ciddi şəkildə gündəmə gəlir.

Təsadüfi deyil ki, regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda da bu mövzudan ətraflı bəhs edilib.

Dövlət qeyri-neft sektorunun inkişafını prioritet kimi qarşıya qoyub. Qeyri-neft sektoru dedikdə isə ilk növbədə kənd təsərrüfatı yada düşür. Çünki bu, sözügedən sektorun ən böyük qoludur. Xüsusilə son illərdə aqrar sahəyə yönəldilən böyük diqqət kənd təsərrüfatı məhsullarının xeyli çoxalmasına səbəb olub.

*Ardı 5-ci səh.*

# *Mövlud ÇAVUŞOĞLU:* “Biz bir-birimizi dəstəkləməyi Sizdən öyrəndik, öyrənirik”

*Əvvəli 1-ci səh.*

Bir daha göstərmişlər ki, onlar həqiqətin, ədalətin yanındadırlar. Azərbaycan nümayəndə heyəti də öz növbəsində, hər zaman Türkiyəni dəstəkləyir. Biz sizinlə Avropa Şurasının Parlament Assambleyasında fəaliyyət göstərən insanlar kimi bu təşkilatı yaxşı tanıyırıq. Əfsuslar olsun ki, 20 il ərzində bu təşkilat Azərbaycanı hədəf seçib, Türkiyəni isə daha uzun müddət ərzində. Xatırlayıram, ilk dəfə mən Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi Avropa Şurası Parlament Assambleyasında fəaliyyətimə başlayanda mənim ilk addımım Azərbaycan heyətini Türkiyə heyəti ilə görüşdürmək idi. Biz elə birinci gün görüşüb razılaşdıq, anlaşdıq ki, bütün məsələlərdə bir-birimizə daim dəstək olacağıq. Əfsuslar olsun ki, hesab edirəm o illərdən bəri Avropa Şurasında deqradasiya prosesi gedir. Bu təşkilat beynəlxalq müstəvidə öz əhəmiyyətini itirməkdədir. Təşkilat dünyada gedən proseslərə heç bir təsir etmək gücündə deyil. Təşkilatın nüfuzu çox





aşağı düşüb və bunun yəqin ki, başlıca səbəbi təşkilatda hökm sürən riyakarlıq, ikili standartlar və ədalətsizlikdir.

Sözün düzü, Azərbaycan xalqı bu təşkilata olan ümidlərini çoxdandır ki, itirib. Çünki təxminən 20 il ərzində müxtəlif dövrlərdə siyasi sifarişi icra edərkən Azərbaycan hədəf seçilibdir, bizim haqqımızda olmayan yalanlar uydurulur, yayılır. Azərbaycan sanki geridə qalmış bir ölkə kimi təqdim edilir, Azərbaycanda gedən müsbət proseslər qeydə alınmır. Azərbaycanı ancaq qara rənglərlə boyamağa çalışırlar və yenə də əsassız, saxta məlumat əsasında məruzələr dərc olunur və qətnamələr qəbul edilir. Sanki Azərbaycanda siyasi məhbuslar var, sanki Azərbaycanda demokratik prosesə əngəl törədilir. Bütün bunlar hamısı yalandır, Azərbaycanda siyasi məhbus yoxdur, biz bunu yaxşı bilirik. Ancaq o yerlərdə ki, siyasi məhbuslar var, o ölkələr diqqətdən kənarda qalır. Mən Ermənistanı misal gətirə bilərəm. Ermənistanın keçmiş prezidenti bir ildən çoxdur ki, həbs olunub, o prezident fəal siyasətlə məşğul olmaq haqqında öz sözünü deyəndən sonra həbs olunub və bir ildən çoxdur ki, həbsxanada saxlanılır. İki il bundan əvvəl Ermənistana rəhbərlik edən prezident də indi istintaq altındadır. Onun haqqında cinayət işi açılıbdır və mətbuatda yayılan məlumata görə onun işi məhkəməyə verilibdir. Bunun da başlıca səbəbi keçmiş prezidentlərin indiki iqtidarın fəaliyyətini tənqid etmələridir. Ermənistanda jurnalistlər həbs olunur. Mənə verilən məlumata görə, bu yaxınlarda bir media orqanının rəhbəri həbs olunub. Bir neçə ay bundan əvvəl bir jurnalist həbsxanada aclıq aksiyasına başlayaraq aclıqdan vəfat edib. Ancaq bu faktların heç biri Avropa Şurasında qeydə alınmır. Nə üçün? Nə üçün Ermənistana qarşı bir münasibət var, Azərbaycana, Türkiyəyə qarşı başqa münasibət? Biz bu sualın cavabını yaxşı bilirik və bir daha qeyd etmək istəyirəm, yaxşı olardı ki, Avropa Şurası bu məsələlərlə məşğul olsun. Avropa Şurası Avropanın aparıcı ölkələrində polis qəddarlığına, zorakılığa, insanların polis tərəfindən öldürülməsinə diqqət yetirsin, o ölkələri qınasın, o ölkələrin hüquq mühafizə orqanlarına irad tutsun. Biz bunu eşitmirik, biz televiziyada görürük. Demək olar ki, müntəzəm olaraq Avropanın aparıcı paytaxtlarında insanlar döyülür, əzilir, təhqir edilir, öldürülür, insanların gözləri çıxarılır, insanların üstünə itlər göndərilir, atlarla insanları əzirlər. Sanki bu, demokratiya imiş. İndi biz bunu deyəndə, - mən bunu bir çox hallarda Avropadan gəlmiş və bizi tənqid etmək istəyən şəxslərə açıq demişəm, - onlar cavab vermirlər, susurlar. Amma otaqdan çıxan kimi yenə də öz bədnam fəaliyyətinə başlayıb bizi ləkələmək istəyirlər. Biz buna, əlbəttə ki, dözə bilmərik. Biz Türkiyə ilə birlikdə mübarizə aparırıq, necə ki, biz sizinlə birlikdə mübarizə aparmışıq.

Siz Avropa Şurasında böyük vəzifəyə seçilmişdiniz, Avropa Şurası Parlament Assambleyasının prezidenti olmusunuz. Sizin dövrünüzdə bu təşkilatda ədalətli mövqe sərgilənirdi. Siz imkan vermirdiniz ki, bu təşkilat kiminsə əlində alətə çevrilsin. Siz çox dəyərli və müstəqil insan kimi bütün təzyiqlərə davam gətirirdiniz və müstəqil siyasət aparırdınız. Ona görə o dövrdə Avropa Şurası elə bil ki, öz əsl simasını bərpa edirdi. Ancaq bu gün bu təşkilat əfsuslar olsun, bir daha demək istəyirəm ki, heç bir nüfuza malik deyil, onların qəbul etdiyi qərarlar bizim üçün tamamilə əhəmiyyətsizdir. Azərbaycanla bağlı qəbul edilmiş son qətnamə bizim üçün heç bir əhəmiyyət kəsb etmir və bu qətnamənin bizim üçün dəyəri bir kağız parçasından artıq deyil. Orada səslənən uydurma ittihamların heç birini biz qəbul etmirik və onların heç bir dırnaqarası tələbini icra etməyəcəyik.

Bizim işimiz isə haqq işidir. Türkiyə bu gün dünya miqyasında güc mərkəzidir və biz buna çox sevinirik. Türkiyənin bütün uğurları bizim üçün də çox əhəmiyyətlidir, bizə ruh verir. Biz birlikdə böyük işlər görmüşük və həmişə haqqın, ədalətin yanında olmuşuq. Əminəm ki, bundan sonra da belə olacaq. Heç bir kənar qüvvə nə Türkiyəyə, nə Azərbaycana təsir edə bilməz. Biz iki qardaş ölkə kimi bundan sonra da dostluq, qardaşlıq, müstəqillik yolu ilə gedəcəyik. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Türkiyənin Xarici İşlər naziri **Mövlud ÇAVUŞOĞLU** dedi:

- Hörmətli cənab Prezidentim. Əvvəla, bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm. Prezidentimiz, qardaşınız Rəcəb Tayyib Ərdoğanın Sizə salamlarını və ən xoş arzularını gətirdim.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Mövlud ÇAVUŞOĞLU:** Sizi qısa müddət əvvəl Davosda görməkdən qürur duymuşduq. Amma daha da önəmlisi bəzi panellərdə təkcə qardaş Azərbaycanın gələcəyi üçün deyil, bölgəmiz üçün ortaya qoyduğunuz baxışları da dinləmə imkanımız olmuşdur.

Türk Şurasına sədrliyi uğurla davam etdirən Azərbaycanın türk dünyasının birliyi üçün töhfələrini ən yaxından bilən bizlərik. Bu baxımdan Zirvə Görüşü çox uğurla keçmişdir. Sizin sədrliyinizlə bu Zirvə Görüşündə qəbul edilən qərarlar nəticəsində, inşallah, sabah Xarici İşlər nazirləri olaraq biz də toplantımızı keçirəcəyik və dostlarımızla işlərimizi görəcəyik.

Hörmətli cənab Prezidentimiz, Çindən bizim vətəndaşlarımızla birlikdə gələn azərbaycanlı qardaşlarımız üçün bizə təşəkkür etməyinizə ehtiyac yoxdur. Çünki biz bir millətin övladlarıyıq. Ümummilli Lider, cənnətməkan Heydər Əliyev atamızın da dediyi kimi, biz iki dövlətik, amma bir millətik. Beləliklə, əlbəttə, o qardaşlarımızı, canlarımızı bizim vətəndaşlarımızdan ayrı tuta bilməzdik, orada qoya bilməzdik. İndi Türkiyədə də rahatdırlar, yaxşıdırlar, mənə də yazırlar, əlaqələrimiz var. Siz də olsaydınız, eynisini edərdiniz.

Bundan başqa, Avropa Şurasında olsun, digər platformalarda olsun, əlbəttə, bir-birimizi dəstəkləyəcəyik. Siz dediyiniz kimi, hörmətli cənab Prezidentimiz, ikili standart hər yerdə var. Təəssüf ki, ideologiyalara boyun əyən təşkilatlar var. Bunlardan biri də Avropa Şurasıdır. Yeni baş katibə, yeni sədrə, hamısına deyirik ki, mövqeyinizi itirirsiniz, bunları düzəltmək üçün biz töhfə verə bilərik. Amma hazırda təəssüf ki, vəziyyət budur.

Biz bir-birimizi dəstəkləməyi Sizdən öyrəndik, öyrənirik. Sizin “Türkiyə burada yoxdur, amma mən varam, biz varıq” sözlərinizi heç bir türk, Türkiyə Cümhuriyyəti vətəndaşı unuda bilməz. Sizin liderliyinizlə bütün bu çətinliklərə qarşı işbirliyimizi, əməkdaşlığımızı davam etdirəcəyik və Sizin liderliyinizlə Türkiyəni və Azərbaycanı, inşallah, hədəflərinə çatdıracağıq. İkili standartlarla, bizə bu cür mövqe nümayiş etdirənlərə qarşı biz də mübarizəmizi, inşallah, birlikdə davam etdirəcəyik. Hər zaman söylədiyimiz kimi, Türkiyənin olduğu qədər Azərbaycanın haqqını və haqlı mübarizəsini də müdafiə etmək bizim üçün vəzifədir. Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkürlərimi bildirirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təşəkkür edirəm. Lütfən, mənim də səmimi salamlarımı əziz qardaşım, Prezident Rəcəb Tayyib Ərdoğana çatdırın. Biz onu Azərbaycanda səbirsizliklə gözləyirik.

Hörmətli Mövlud bəy, sizi bir daha salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Siz bizim əziz qonağımızsınız. Siz Türkiyə - Azərbaycan əlaqələrinin inkişafı üçün çox böyük xidmətlər göstərirsiniz. Siz Azərbaycanı ürəkdən sevən bir insansınız və müxtəlif vəzifələrdə daim Azərbaycanı dəstəkləmisiniz, müdafiə etmisiniz. Biz sizinlə çoxdandır bir-birimizi tanıyırıq, Avropa Şurası Parlament Assambleyasında bərabər fəaliyyət göstərmişik və daim bir-birimizi dəstəkləmişik.

Sizin Türkiyənin inkişafında çox böyük xidmətləriniz var. Bu gün qardaş Türkiyənin dünya miqyasında güc mərkəzinə çevrilməsində sizin xüsusi rolunuz var. Sizi Azərbaycanda çox yaxşı tanıyırlar. Azərbaycanda sizi sevirlər, ölkəmizin, xalqımızın dostu kimi, qardaşı kimi sizə böyük hörmət göstərirlər. Bütün bu xidmətləri nəzərə alaraq, siz Azərbaycan dövlətinin yüksək ordeni - “Dostluq” ordeni ilə təltif edilirsiniz və icazə verin, bu yüksək ordeni sizə təqdim edim.

Prezident İlham Əliyev “Dostluq” ordenini Mövlud Çavuşoğluna təqdim etdi.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm.

**Mövlud ÇAVUŞOĞLU:** Hörmətli cənab Prezident, Sizin təqdirinizə layiq olmaq mənim üçün şərəfdir. Söylədiyiniz gözəl sözlərə görə minnətdarlığımı bildirmək istəyirəm. Siyasətə başladığım gündən bəri təkcə Türkiyənin haqqını deyil, Azərbaycanın haqqını da müdafiə etməyi özümə borc bildim. Əsasən, bunu da Sizdən öyrəndim. Avropa Şurasına ilk getdiyimiz zaman Siz də Azərbaycan nümayəndə heyətinin rəhbəri idiniz. Orada Azərbaycan qədər Türkiyəni də müdafiə edirdiniz. Yenə, bir az əvvəl söylədiyim kimi, Türkiyənin olmadığı yerlərdə, xüsusilə “Türkiyə yox, amma biz varıq, mən varam” deyərək Türkiyənin haqqını hər zaman müdafiə etdiniz. Türkiyə və Azərbaycan iki qardaş ölkə olaraq hər zaman bir yerdə olacaqdır. Sizin liderliyiniz sayəsində ikitərəfli münasibətlərimiz daha çox gücləndi, Prezidentimiz Ərdoğan və Azərbaycan Prezidenti olaraq Zati-alinizin liderliyi ilə.

Sizin Azərbaycanla, bölgəmizlə bağlı mövqeyinizi hər kəs təqdir edir. Amma biz bunun reallıqda faydalarını çox gördük. Ümummilli Lider, cənnətməkan Heydər Əliyev atamızın sözü bizim üçün rəhbərdir: İki dövlətik, amma bir millətik. Bir millətin övladları olaraq, əlbəttə, bir-birimizi müdafiə edəcəyik, bir-birimizə kömək edəcəyik. Mən Xarici İşlər naziri olaraq, - Elmar qardaşım qısqanmasın, - hər zaman təkcə Türkiyənin deyil, Azərbaycanın da Xarici İşlər naziri kimi çalışdım.

Bizim üçün ən böyük xoşbəxtlik böyüklərimizin bizi təqdir etməsidir. Amma bizim üçün ən böyük şərəf və orden də Azərbaycan və Türkiyə bayraqlarının - türk bayrağının bütün dünyada dalğalanmasıdır. Şanlı bayraqlarımızın dünyada dalğalanması üçün bundan sonra da təkcə siyasi həyatımda deyil, ömürboyu Türkiyə üçün çalışdığım qədər qardaş Azərbaycan və Azərbaycan xalqı üçün də çalışmağa davam edəcəyəm. Bu orden üçün çox təşəkkür edirəm, hörmətli cənab Prezidentim.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm.

**Mövlud ÇAVUŞOĞLU:** Sizə ehtiramımı bildirirəm.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

# Ötən il Azərbaycan-Qırğızıstan ikitərəfli münasibətlərinin inkişafı baxımından uğurlu olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Qırğız Respublikasının Xarici İşlər naziri Çingiz Aydarbekovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nazir Çingiz Aydarbekov Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qırğızıstan Prezidentinə çatdırmağı xahiş etdi.

**Azərbaycan Prezidenti İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, sizi görməyimə şadam. Sabah sizin mühüm tədbiriniz başlayır. Əminəm ki, tədbir bizim ötən il keçirdiyimiz sammit zamanı dövlət başçıları tərəfindən verilən bütün tapşırıqlar ruhunda yaxşı keçəcək. Əlbəttə, təşkilatımız ildən-ilə güclənir və bütün türkdilli dövlətlər arasında əməkdaşlığın möhkəmlənməsi üzrə çox mühüm məsələləri həll edir. Son zamanlar həm siyasi qarşılıqlı fəaliyyət planında, eyni zamanda, iqtisadi inteqrasiya üzrə və mədəniyyət, təhsil sahələrində çoxlu təşəbbüslər irəli sürülüb. Həm fond yaradılıb, həm də akademiya fəaliyyət göstərir. Beləliklə, biz öz işimizi daha məzmunlu edirik.

Hesab edirəm ki, ötən il ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı baxımından uğurlu olub. Mən beynəlxalq tədbirlər çərçivəsində Prezidentlə bir neçə dəfə görüşmüşəm. Əməkdaşlığın möhkəmlənməsi istiqamətində bu il də mühüm tədbirlər nəzərdə tutulub. Qırğızıstan bizim üçün çox yaxın ölkədir, qardaş ölkədir və biz ikitərəfli qarşılıqlı fəaliyyəti inkişaf etdirmək istəyirik. Beləliklə, düşünürəm ki, bu il siz öz həmkarınızla birgə həyata keçirəcəyiniz tədbirləri müəyyən edəcəksiniz.



Qırğızıstanın Xarici İşlər naziri **Çingiz AYDARBEKOV** dedi:

- Hörmətli İlham Heydər oğlu, çox sağ olun. İlk növbədə, Sizə təşəkkürümü bildirmək istərdim. Gərgin iş rejiminə baxmayaraq, Siz görüşmək və hər şeydən əvvəl Qırğızıstan-Azərbaycan münasibətlərinin perspektivlərini müzakirə etmək üçün vaxt tapdınız. Siz qeyd etdiyiniz kimi, ötən il və ondan əvvəlki il Sizin şəxsi diqqətiniz və qardaşlıq, dostluq münasibətlərimizi möhkəmləndirmək istiqamətində bizim Prezidentin səyləri sayəsində əməkdaşlıq çox fəal şəkildə inkişaf edib. Ötən il türkdilli dövlətlərin başçılarının Bakı Sammitində tarixi hadisə baş verdi, təşkilatımız böyüdü, bundan başqa, Avropada Türk Şurasının ofisi açıldı. Zənnimizcə, Sizin bizim Prezidentimizlə çox vacib görüşünüz oldu. Həmin görüşdə siz tərəflərin hökumətlərinin icra etdikləri, reallaşdırdıqları konkret perspektiv, aktual razılaşmaları müəyyən etdiniz. Onların arasında Qırğız-Azərbaycan məktəbinin, Qırğız-Azərbaycan dostluq parkının tikintisi haqqında razılaşma da var. Ötən il dekabrın 24-də biz məktəbin təməlini qoyduq. Bu il yanvarın 10-da isə şəxsən bizim Prezidentin iştirakı ilə, - o, qardaşlıq münasibətlərimizə böyük diqqət yetirir, - park zonasının təməlqoyma mərasimi oldu. Bu, şəhərimizin ən mötəbər nöqtəsidir və şəhərimizin sakinləri bunu böyük ruh yüksəkliyi ilə qarşıladılar. Biz Sizin Qırğız Respublikasına rəsmi səfərinizi səbirsizliklə gözləyirik.

## Mövlud Çavuşoğlunun “Dostluq” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında dostluq və qarşılıqlı əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Mövlud Çavuşoğlu “Dostluq” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 fevral 2020-ci il*

## Balakən rayonunun Yevlax-Zaqatala-Gürcüstanla dövlət sərhədi (155 km)-Qullar-Tülü-Talalar- Şərif-Acılıqbinə-Qaysa avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Otuz min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Yevlax-Zaqatala-Gürcüstanla dövlət sərhədi (155 km)-Qullar-Tülü-Talalar-Şərif-Acılıqbinə-Qaysa avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 17,6 milyon (on yeddi milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 fevral 2020-ci il*

# Azərbaycanın və Səudiyyə Ərəbistanı Krallığının daxili işlər orqanları arasındakı əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyr ilə görüşüb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Səudiyyə Ərəbistanının beynəlxalq təşkilatlarda daim Azərbaycanı dəstəklədiyini məmnunluqla qeyd edərək, dövlətlərimizin rəhbərləri arasında olan şəxsi dostluq münasibətlərinin, qarşılıqlı səfərlərin, yüksək səviyyədə imzalanmış sənədlərin əməkdaşlığın daha da dərinləşməsinə təkan verdiyini, xüsusən son illər bu əlaqələrin dinamik inkişaf etdiyini diqqətə çatdırıb.

Daha sonra qonağa ölkəmizdə mövcud kriminogen durum, daxili işlər orqanlarında həyata keçirilən islahatlar, sabitlik və əmin-amanlığın qorunub saxlanılması üçün görülən işlər barədə məlumat verilib.

Azərbaycan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının daxili işlər orqanları arasındakı əlaqələrə toxunan nazir Vilayət Eyvazov bu əməkdaşlığın 2018-ci il fevralın 19-da imzalanmış “Azərbaycan Respublikası və Səudiyyə Ərəbistanı Krallığı arasında cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol” və Beynəlxalq Kriminal Polis Təşkilatı (İNTERPOL) çərçivəsində həyata keçirildiyini diqqətə çatdırıb.



Həməd bin Abdullah bin Səud bin Xudeyr ətraflı məlumata görə təşəkkür edib, diplomatik fəaliyyəti dövründə paytaxt Bakı da daxil olmaqla ölkəmizin bütün bölgələrində hökm sürən sabitlik, əmin-amanlıq şəraitindən məmnunluğunu bildirib. Məhz təhlükəsizlik və sabitlik amillərinin, ən müasir tələblərə cavab verən yeni infrastrukturun və xidmət sahələrinin yaradılması hesabına Azərbaycanın əcnəbilər üçün cəlbedici məkana çevrildiyini, nəticədə Səudiyyə Ərəbistanından gələn turistlərin sayının ilbəil artdığını vurğulayan səfir bu işdə ölkə rəhbərliyinin və hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının danılmaz rolunu qeyd edib. Diplomat bundan sonrakı fəaliyyəti dövründə də əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə təhlükəsizlik sahəsində əlaqələrin mövcud vəziyyəti, prioritet istiqamətləri barədə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

## Ədliyyə naziri İsmayıllıda vətəndaşları qəbul edib

Fevralın 5-də Ədliyyə naziri Fikrət Məmmədov İsmayıllı şəhəri Heydər Əliyev Mərkəzində İsmayıllı, Qəbələ, Göyçay, Şamaxı, Oğuz və Ağdaş rayonlarında yaşayan vətəndaşları qəbul edib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Qaldırılan digər məsələlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Yerli sakinlər vətəndaşların bölgələrdə qəbulu ilə bağlı Azərbaycan Prezidentinin göstərdiyi qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

## Azərbaycan nümayəndə heyəti Aşqabadda keçirilən iclasda iştirak edib

Türkmənistanda Xəzər dənizində bioloji resursların qanunsuz hasilatına (brakonyerliyə) qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol layihəsinin müzakirəsi üzrə Xəzəryanı dövlətlərin ekspertlərinin növbəti görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Aşqabadda keçirilən görüşdə müvafiq nazirliklərin və aidiyyəti qurumların nümayəndələri iştirak ediblər. Azərbaycan nümayəndə heyətinin tərkibində Xarici İşlər Nazirliyinin Beynəlxalq hüquq və müqavilələr idarəsinin əməkdaşı Məmməd Çıraqlı, Dövlət Sərhəd Xidmətinin Sahil mühafizəsinin qərargah rəisinin müavini Rasim Əliyev və digərləri təmsil olunub.

Xəzər dənizində bioloji ehtiyatların qanunsuz hasilatına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol layihəsinin müzakirəsi Xəzəryanı dövlətlərin qarşılıqlı əməkdaşlığının gündəliyində mühüm yer tutur.

Görüş zamanı tərəflər protokolun Xəzər dənizinin təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Sazişə uyğun hazırlandığını qeyd ediblər.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Fevralın 5-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Mərkəzi Seçki Komissiyasının bəyanatı oxunub. İndiyə qədər ölkəmizdə keçirilən seçki və referendumlarda Ermənistanın təcavüzü nəticəsində öz doğma yurdlarından didərgin salınan Azərbaycan vətəndaşlarının seçki hüquqlarının təmin olunduğunu və milli mənsubiyyətinə görə vətəndaşlar arasında heç bir fərq qoyulmadığını diqqətə çatdıran Mərkəzi Seçki Komissiyası bəyan edib ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni əsilli Azərbaycan vətəndaşları da digər vətəndaşlarımız kimi qarşıdan gələn Milli Məclisə seçkilərdə öz səsvermə hüquqlarından azad və sərbəst şəkildə istifadə edə bilər və bunun üçün Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq bütün addımların atılmasına hazırdır.

Sonra komissiyanın 2020-ci il yanvarın 27-də keçirilmiş iclasının protokolu təsdiq olunub. Ardınca fevralın 9-da keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar səsvermə günü seçki məntəqələrində proseslərin əvvəldən axıradək, fasiləsiz və arasıkəsilmədən izlənilməsi məqsədi ilə, işğal edilmiş ərazilər istisna olmaqla, respublika ərazisinin tam əhatə olunması prinsipi əsas götürülərək, 119 seçki dairəsi üzrə 1000 (min) seçki məntəqəsində veb-kamera quraşdırılmasına qərar verilib.

İclasda qarşıdan gələn Milli Məclisə seçkilərdə Vahid Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə də baxılıb və sözügedən siyasi partiya tərəfindən təqdim olunan şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

Komissiya 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar daxil olmuş müraciətlərə də baxıb. Maraqlı subyektlərin iştirakı ilə müraciətlərlə bağlı aparılan geniş müzakirələrdən sonra bir namizədin qeydə alınmasına dair müvafiq dairə seçki komissiyasının qərarı ləğv edilərək, namizədə verilmiş vəsiqə etibarsız hesab edilib, habelə digər bir seçki subyektinə xəbərdarlıq olunub.

Beynəlxalq müşahidə missiyalarının, xarici qurumların və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda cari məsələlərə də baxılıb.

### Qərar № 20/117

**Mərkəzi Seçki Komissiyasının 27 yanvar 2020-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 27 yanvar 2020-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

05.02.2020-ci il

### Qərar № 20/118

**2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçki məntəqələrində veb-kameraların quraşdırılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının seçki qanunvericiliyinə əsasən seçki komissiyalarının fəaliyyəti də daxil olmaqla, seçkilərin hazırlanması, keçirilməsi, nəticələrin rəsmiləşdirilməsi və ictimailəşdirilməsində aşkarlıq təmin edilməli və proseslər seçicilər üçün şəffaf olmalıdır. Qanunvericiliyin bu istiqamətdə sözügedən tələblərinə riayət edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (Mərkəzi Seçki Komissiyası) seçkilərin hazırlanıb keçirilməsində müşahidəçilərin və digər aşkarlıq institutlarının azad və sərbəst fəaliyyəti üçün daim geniş imkanlar və hərtərəfli şərait yaradır.

Seçici siyahılarının mütəmadi şəkildə nümayiş etdirilməsi, seçki günü seçicilərin aktivliyi, səsvermənin gedişi və ilkin nəticələr barədə məlumatların tam və operativ şəkildə ictimailəşdirilməsi, habelə ictimaiyyətin bu proseslərlə yaxından tanış olması üçün ardıcıl, sistemli və davamlı tədbirlər görülür, dövlət avtomatlaşdırılmış informasiya sistemi və kütləvi informasiya vasitələrinin imkanlarından sözügedən bütün proseslərdə geniş və səmərəli istifadə olunur.

Müşahidəçi statusuna sahib olmadan və ümumiyyətlə, seçki məntəqələrinə baş çəkmədən geniş ictimaiyyətin səsvermənin gedişini internet vasitəsilə hər kəs üçün açıq platformada müşahidə etməsi, seçicilərə səsvermə üçün zəruri şərait yaradılması, eyni zamanda məntəqə seçki komissiyalarının üzvləri tərəfindən seçki sənədləri ilə işin aparılması, səs verdikdən sonra seçki bülletenlərinin seçki qutusuna salınması, səslərin hesablanması, səsvermənin nəticələrinin müəyyənləşdirilərək rəsmiləşdirilməsi proseslərinin izlənilməsi, beləliklə, aşkarlığın və şəffaflığın daha geniş miqyasda təmin edilməsi məqsədi ilə bütün digər vasitələrlə yanaşı, əlavə tədbirlər qismində 2008-ci ildən etibarən ölkədə keçirilən seçki və referendumlarda 500 seçki məntəqəsində (seçki məntəqələrinin təqribən 10 faizində), sonradan isə 1000 seçki məntəqəsində (seçki məntəqələrinin təqribən 20 faizində) veb-kameralar quraşdırılmışdır. Ölkəmizdə seçkilərin gedişini izləmiş çoxsaylı yerli və beynəlxalq subyektlər, habelə seçki mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilmiş bu mütərəqqi nailiyyəti sonradan bir sıra xarici dövlətlər də öz seçki praktikalarında tətbiq etməyə başlamışlar.

Bilavasitə şəffaflığın daha da genişləndirilməsinə xidmət göstərən bu uğurlu ənənəyə sadiq qalaraq Mərkəzi Seçki Komissiyası hesab edir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə də veb-kameralar vasitəsilə keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin edilməsi üçün zəruri olan texniki və digər şərtlər çərçivəsində işğal edilmiş ərazilər istisna olmaqla, respublika ərazisinin tam əhatə edilməsi prinsipi əsas götürülərək, Milli Məclisə seçkilərdə 119 seçki dairəsi üzrə 1000 (min) seçki məntəqəsində veb-kameralar quraşdırılaraq seçki prosesində iştirak edən maraqlı tərəflərin istifadəsinə verilməlidir. Bu fəaliyyət tam başa çatdıqdan sonra veb-kameralar quraşdırılan seçki məntəqələrinin siyahısı dərc edilməklə ictimailəşdirilməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.10-cu, 25.2.16-cı, 28.2-ci, 28.4-cü, 40.1-ci və 100-cü maddələrinə, habelə Mərkəzi Seçki Komissiyasının 5 iyun 2013-cü il tarixli 5/31 saylı qərarı ilə təsdiq edilmiş "Seçki məntəqələrində veb-kameraların quraşdırılması və istifadəsi Qaydaları"na uyğun olaraq **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səsvermə günü seçki məntəqələrində səsvermə prosesinin əvvəldən axıradək fasiləsiz izlənilməsi məqsədi ilə 119 seçki dairəsi üzrə 1000 (min) seçki məntəqəsində veb-kamera quraşdırılsın.
2. Ermənistan tərəfindən işğal edilmiş ərazilər istisna olmaqla, respublika ərazisinin tam əhatə olunması, keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin edilməsi prinsipləri əsas götürülərək, veb-kameraların quraşdırılması üçün zəruri olan texniki və digər şərtlərin təmin olunması ilə əlaqədar müvafiq tədbirlər görülərək başa çatdırılsın.
3. Veb-kamera quraşdırılmış seçki məntəqələrinin siyahısı dərc edilsin.
4. Bu Qərarın icrası öz səlahiyyətləri daxilində aidiyyəti üzrə müvafiq qurumlara həvalə edilsin.
5. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*05.02.2020-ci il*

### Qərar № 20/120

**2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 yanvar 2020-ci il tarixli 1413 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 46 saylı Şirvan seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) sədri T.B.Ağayev 2020-ci fevralın 4-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək 46 saylı Şirvan seçki dairəsindən qeydə alınmış namizəd Camalov Rəşad Yavər oğlunun ikili vətəndaşlığının olması barədə komissyaya məlumat daxil olduğunu bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Bununla əlaqədar qeydə alınmış namizəd R.Y.Camalovun seçki sənədləri dairə seçki komissiyasından tələb olunaraq nəzərdən keçirilmiş və müəyyən edilmişdir ki, o, 46 saylı Şirvan seçki dairəsi üzrə namizədliyini öz təşəbbüsü ilə irəli sürməsi barədə bildiriş və öhdəlik ərizəsini 2019-cu il dekabrın 21-də dairə seçki komissiyasına təqdim etmiş, öhdəlik ərizəsində Azərbaycan Respublikasının vətəndaşı olduğunu, seçkilərdə iştirak etmək hüququna malik olduğunu, ikili vətəndaşlığının və başqa ölkələr qarşısında öhdəliklərinin olmadığını öz imzası ilə təsdiq etmişdir. Dairə seçki komissiyasının 23 dekabr 2019-cu il tarixli iclasında namizədliyi təsdiq olunaraq ona imza vərəqələri verilmiş, o, namizədliyinin müdafiəsi üçün imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədlərini dairə seçki komissiyasına təqdim etmiş, 30 dekabr 2019-cu ildə qeydə alındıqdan sonra ona deputatlığa qeydə alınmış namizəd vəsiqəsi verilmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, R.Y.Camalova Rusiya Federasiyasının vətəndaşlığını əldə etdiyinə görə 5 iyul 2006-cı il tarixdə Rusiya Federasiyası Moskva Vilayəti Orexovo-Zuyevo rayonu Likino-Dulevo şəhər milis orqanı tərəfindən müvafiq pasport verilmişdir. O, həmçinin Rusiya Federal Vergi Xidmətinin Moskva şəhəri üzrə 46 saylı rayonlararası müfəttişliyi tərəfindən Rusiya Federasiyasının vətəndaşı kimi vergi ödəyicisi olaraq qeydiyyata alınmış, o cümlədən Rusiya Federasiyasının Pensiya Fondunda da ödəyici kimi qeydiyyatdan keçmişdir.

Bununla da Azərbaycan Respublikasının vətəndaşı olan R.Y.Camalovun həm də Rusiya Federasiyasının vətəndaşı olması faktı aşkar edilmişdir.

İkili vətəndaşlığı olan R.Y.Camalovun deputatlığa namizədliyinin qeydə alınması isə Azərbaycan Respublikası Konstitusiyası və Seçki Məcəlləsinin tələblərinin birbaşa pozulması anlamına gəlir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsinin II hissəsində təsbit olunmuşdur ki, ikili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 13.3.3-cü maddəsinə görə isə ikili vətəndaşlığı olan Azərbaycan Respublikası vətəndaşının ikili vətəndaşlığı qalanadək Milli Məclisin deputatı seçilmək hüququ yoxdur.

Belə ki, passiv seçki hüququ olmayan şəxsin deputatlığa namizədliyinin qeydə alınması faktı müəyyən edilmişdir. Buna görə də yeni açılmış hallar nəzərə alınaraq 46 saylı Şirvan seçki dairəsi dairə seçki komissiyasının 30 dekabr 2019-cu il tarixli 41/188 saylı qərarı ləğv edilməli və qeydə alınmış namizəd R.Y.Camalova verilmiş 30 dekabr 2019-cu il tarixli 02 nömrəli vəsiqə etibarsız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 85-ci, Seçki Məcəlləsinin 19.4-cü, 13-cü, 25.2.1-ci, 25.2.22-ci, 28.2-ci, 148.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 46 saylı Şirvan seçki dairəsi üzrə qeydə alınmış namizəd Camalov Rəşad Yavər oğlunun Rusiya Fedreasiyasının vətəndaşı olması faktının aşkar olunması ilə əlaqədar yaranmış Azərbaycan Respublikasının Konstitusiyasına və Seçki Məcəlləsinə zidd olan hallar nəzərə alınaraq həmin seçki dairəsi dairə seçki komissiyasının onun deputatlığa namizədliyinin qeydə alınması haqqında 30 dekabr 2019-cu il tarixli 41/188 saylı qərarı ləğv edilsin, həmin dairə seçki komissiyası tərəfindən R.Y.Camalova verilmiş 30 dekabr 2019-cu il tarixli 02 nömrəli vəsiqə etibarsız hesab edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*05.02.2020-ci il*

### Qərar № 20/119

**2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vahid Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vahid Azərbaycan Partiyası Mərkəzi Şurasının 2020-ci il 31 yanvar tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Vahid Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Elçin Müqarib oğlu Səlimov
Fəranə Qafar qızı Məmmədova
Ruqiyyə Qafar qızı Məmmədova
Ruslan Fərman oğlu Əliyev
Hamlet Fərhad oğlu Seyidov
Qəhrəman Cəfər oğlu Mirzəyev
Vidadi Gülheydar oğlu Əsgər
İslam Habir oğlu Qəhrəmanov
Nail Ziyafət oğlu Qardaşov
Namiq Mais oğlu Sadıqov
Amil Zahir oğlu Beydullayev
Mürşüd Bəylər oğlu Bayramov
Elman Nurəddin oğlu Əsgərov
Elçin Mehman oğlu Vəlizadə
Rövşən Elşad oğlu Musayev
Nizami Qələndər oğlu Məmmədov
Şahmar Seyidağa oğlu Mahmudov
Fərid Cabbar oğlu Həsənov
Mahir Eldar oğlu Abdullayev

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*05.02.2020-ci il*

*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 5 fevral 2020-ci il tarixli 20118 saylı qərarına əsasən dərc edilir*

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə müşahidə üçün veb-kamera quraşdırılan seçki məntəqələri haqqında məlumat

*(119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsi)*

| Seçki dairəsinin sıra sayı və adı | Veb-kamera quraşdırılan seçki məntəqələrinin sıra sayı |
|---|---|
| 1 - Şərur - Sədərək | 1, 22, 25, 27, 31 |
| 2 - Şərur | 1, 4, 5, 8, 50 |
| 3 - Babək - Kəngərli - Naxçıvan | 12, 17, 41, 42, 45 |
| 4 - Naxçıvan şəhər | 10, 12, 15, 17, 28 |
| 5 - Şahbuz - Babək | 1, 2, 26, 31, 34 |
| 6 - Culfa - Babək | 16, 17, 21, 22, 26 |
| 7 - Ordubad - Culfa | 1, 2, 3, 4, 6 |
| 8 - Binəqədi I | 3, 4, 7, 9, 19, 20, 26, 30, 32, 35 |
| 9 - Binəqədi II | 5, 8, 9, 11, 12, 13, 15, 19, 24, 29 |
| 10 - Binəqədi III | 3, 6, 8, 10, 21, 25, 27, 30, 32, 33 |
| 11 - Qaradağ | 2, 4, 14, 16, 18, 20, 24, 25, 26, 27 |
| 12 - Qaradağ - Binəqədi -Yasamal | 2, 4, 5, 6, 8, 10, 11, 12, 14, 24, 27, 32 |
| 13 - Xəzər - Pirallahı | 1, 6, 10, 11, 12, 16, 23, 32, 34, 35 |
| 14 - Xəzər | 1, 3, 7, 13, 16, 20, 22, 27, 30, 35 |
| 15 - Yasamal I | 1, 2, 4, 9, 11, 16, 17, 18, 22, 25 |
| 16 - Yasamal II | 5, 6, 7, 8, 11, 12, 16, 17, 25, 26 |
| 17 - Yasamal III | 1, 2, 3, 4, 5, 8, 12, 13, 26, 27 |
| 18 - Nərimanov - Nizami | 3, 4, 7, 9, 12, 16, 17, 19, 22, 27 |
| 19 - Nərimanov I | 6, 7, 9, 12, 13, 16, 20, 24, 26, 28 |
| 20 - Nərimanov II | 1, 4, 5, 7, 8, 16, 21, 25, 26, 33 |
| 21 - Nəsimi I | 1, 5, 8, 10, 11, 15, 16, 20, 21, 24 |
| 22 - Nəsimi II | 2, 5, 13, 14, 19, 23, 25, 26, 27, 28 |
| 23 - Nəsimi - Səbail | 2, 9, 11, 12, 13, 15, 17, 20, 22, 28 |
| 24 - Nizami I | 3, 7, 9, 11, 14, 20, 22, 23, 24, 25 |
| 25 - Nizami II | 2, 6, 10, 12, 14, 18, 20, 26, 27, 30 |
| 26 - Sabunçu I | 5, 9, 15, 20, 21, 24, 25, 26, 28, 30 |
| 27 - Sabunçu II | 2, 4, 5, 7, 9, 20, 21, 24, 29, 30 |
| 28 - Sabunçu III | 1, 5, 9, 10, 12, 17, 18, 20, 21, 22 |
| 29 - Səbail | 1, 2, 4, 5, 10, 11, 13, 15, 17, 19, 22, 23 |
| 30 - Suraxanı I | 5, 6, 8, 9, 13, 14, 15, 18, 23, 25 |
| 31 - Suraxanı II | 2, 4, 6, 7, 9, 12, 14, 18, 22, 27 |
| 32 - Suraxanı III | 1, 4, 10, 11, 12, 14, 19, 21, 22, 29 |
| 33 - Xətai I | 3, 5, 9, 12, 14, 20, 23, 24, 29, 30 |
| 34 - Xətai II | 2, 7, 9, 13, 15, 18, 22, 24, 28, 33 |
| 35 - Xətai III | 1, 6, 10, 12, 14, 15, 17, 20, 21, 23 |
| 36 - Xətai IV | 2, 4, 5, 7, 9, 12, 15, 17, 21, 22 |
| 37 - Nizami I (Gəncə) | 2, 5, 9, 13, 15, 16, 19, 21, 22, 24 |
| 38 - Nizami II (Gəncə) | 4, 6, 7, 10, 12, 13, 16, 17, 18, 21 |
| 39 - Kəpəz I (Gəncə) | 2, 3, 5, 8, 13, 15, 16, 20, 23 |
| 40 - Kəpəz II (Gəncə) | 3, 5, 8, 12, 15, 16, 18, 20, 22, 25, 28 |
| 41 - Sumqayıt I | 1, 2, 5, 6, 9, 11, 12, 18, 22, 23 |
| 42 - Sumqayıt II | 5, 8, 12, 15, 20, 22, 26, 30, 32, 37 |
| 43 - Sumqayıt III | 3, 5, 11, 13, 18, 20, 24, 27, 33 |
| 44 - Sumqayıt - Xızı | 2, 6, 13, 16, 17, 20, 21, 23, 31 |
| 45 - Abşeron | 2, 4, 5, 8, 10, 11, 12, 14, 18, 22, 25, 30 |
| 46 - Şirvan | 1, 10, 12, 14, 15, 16, 17, 21, 24, 25, 27, 28 |
| 47 - Mingəçevir | 4, 5, 9, 12, 15, 17, 19, 22, 23, 24, 25, 28 |
| 48 - Yevlax | 2, 3, 4, 5, 6, 8, 9, 10, 11, 12, 13, 16, 17, 18,19 |
| 49 - Yevlax - Mingəçevir | 4, 7, 15, 18, 21, 34, 35 |
| 50 - Abşeron - Qobustan | 1, 4, 8, 10, 22, 44, 46 |
| 51 - Qusar | 1, 7, 8, 14, 34, 36, 38, 43, 47, 50 |
| 52 - Quba | 1, 2, 3, 5, 7, 9, 11, 16, 24, 54 |
| 53 - Quba - Qusar | 1, 3, 6, 8, 14, 21, 22, 31, 34, 38 |
| 54 - Şabran - Siyəzən | 1, 2, 3, 4, 7, 46, 47, 49, 50, 53 |
| 55 - Xaçmaz şəhər | 1, 2, 5, 6, 7, 8, 10, 11, 12, 24, 25, 37 |
| 56 - Xaçmaz kənd | 1, 2, 3, 4, 5, 6, 7, 13, 24, 30 |
| 57 - Kürdəmir | 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 14, 22 |
| 58 - Hacıqabul - Kürdəmir | 1, 2, 3, 4, 5, 8, 9, 11 |
| 59 - Salyan | 3, 4, 5, 7, 16, 19, 22, 26 |
| 60 - Salyan - Neftçala | 1, 3, 11, 12, 30 |
| 61 - Neftçala | 3, 7, 8, 14, 37 |
| 62 - Saatlı | 3, 4, 6, 23, 25 |
| 63 - Sabirabad I | 4, 11, 12, 20, 28 |
| 64 - Sabirabad II | 3, 28, 37, 39, 40 |
| 65 - Saatlı - Sabirabad - Kürdəmir | 8, 18, 19, 52 |
| 66 - Biləsuvar | 1, 2, 3, 4, 5, 7, 9, 10, 15, 42 |
| 67 - Cəlilabad şəhər | 1, 3, 4, 5, 8, 9, 11, 13, 15, 18, 19, 26 |
| 68 - Cəlilabad kənd | 2, 3, 6, 9, 13 |
| 69 - Cəlilabad - Masallı - Biləsuvar | 1, 6, 8, 20, 30, 32 |
| 70 - Masallı şəhər | 1, 2, 3, 5, 6, 7, 8, 10, 11, 22, 26 |
| 71 - Masallı kənd | 11, 19, 26, 31, 33 |
| 72 - Yardımlı - Masallı | 1, 2, 39, 45, 66 |
| 73 - Lənkəran şəhər | 3, 4, 5, 6, 7, 8, 10, 13, 14, 22, 23, 25 |
| 74 - Lənkəran kənd | 2, 23, 26, 29, 31 |
| 75 - Lənkəran - Masallı | 1, 12, 25, 36, 38 |
| 76 - Lənkəran - Astara | 1, 6, 25, 39, 42, 44 |
| 77 - Astara | 1, 2, 3, 4, 6, 8, 20, 22, 26 |
| 78 - Lerik | 1, 2, 3, 20, 74 |
| 79 - İmişli | 2, 3, 8, 10, 11 |
| 80 - İmişli - Beyləqan | 1, 2, 10, 13, 40, 42 |
| 81 - Beyləqan | 3, 6, 15, 17, 34 |
| 82 - Ağcabədi | 2, 3, 7, 8, 11, 13, 22 |
| 83 - Ağcabədi - Füzuli | 1, 2, 21, 23 |
| 84 - Füzuli | 3, 4, 6, 7, 9, 17 ,23 |
| 85 - Şamaxı | 1, 3, 4, 5, 6, 9, 10, 12, 13, 46, 47 |
| 86 - İsmayıllı | 1, 2, 3, 4, 35, 37 |
| 87 - Ağsu - İsmayıllı | 1, 2, 3, 4, 5, 6, 7, 27, 28 |
| 88 - Göyçay | 5, 8, 11, 23, 32 |
| 89 - Göyçay - Ağdaş | 2, 3, 4, 7, 8, 11, 12, 19, 24, 27, 28, 33 |
| 90 - Ağdaş | 2, 4, 5, 9, 10, 11, 13, 17, 20, 21 |
| 91 - Ucar | 2, 3, 4, 5, 6, 10, 12, 14, 27, 34 |
| 92 - Zərdab - Ucar | 1, 2, 3, 4, 5, 15, 17, 23 |
| 93 - Bərdə şəhər | 1, 2, 3, 4, 7, 8, 10, 13, 14, 31, 33 |
| 94 - Bərdə kənd | 6, 11, 22, 27, 45 |
| 95 - Tərtər | 1, 2, 3, 4, 5, 6, 10, 31 |
| 96 - Goranboy - Naftalan | 1, 2, 3, 16, 17, 40, 41 |
| 97 - Goranboy - Ağdam - Tərtər | 2, 3, 9, 10, 14, 18 |
| 98 - Şəmkir şəhər | 1, 3, 4, 5, 6, 7, 8, 9, 11,12, 14, 23 |
| 99 - Şəmkir kənd | 6, 14, 16, 21, 36 |
| 100 - Şəmkir - Daşkəsən | 16, 18, 21, 22, 30, 31, 32, 33 |
| 101 - Göygöl - Daşkəsən | 1, 2, 3, 6, 7, 24, 27, 42, 46 |
| 102 - Samux - Şəmkir | 1, 2, 3, 4, 5, 6, 10, 31, 39 |
| 103 - Gədəbəy | 3, 5, 9, 10, 12, 30 |
| 104 - Gədəbəy - Tovuz | 1, 8, 9, 18, 19, 21 |
| 105 - Tovuz | 2, 4, 11, 15, 17, 24, 25, 32, 35, 39 |
| 106 - Tovuz - Qazax - Ağstafa | 1, 2, 3, 8, 10, 11, 14, 17 |
| 107 - Qazax | 1, 2, 3, 4, 5, 6, 7, 8, 22, 24 |
| 108 - Ağstafa | 1, 2, 3, 4, 5, 6, 8, 21 |
| 109 - Balakən | 1, 2, 4, 5, 12, 13, 31, 32 |
| 110 - Zaqatala | 5, 10, 27, 30, 41 |
| 111 - Zaqatala - Balakən | 1, 2, 3, 5, 6, 7, 8, 9, 30, 35 |
| 112 - Qax | 1, 2, 3, 4, 5, 16, 23, 27 |
| 113 - Şəki şəhər | 1, 2, 4, 7, 8, 9, 10, 12, 13, 14, 15, 17, 18, 19, 21 |
| 114 - Şəki kənd I | 1, 5, 7, 8, 35, 37, 42 |
| 115 - Şəki kənd II | 3, 5, 15, 16, 29, 32, 35 |
| 116 - Qəbələ | 1, 2, 3, 4, 5, 8, 17, 20, 22, 23 |
| 117 - Oğuz - Qəbələ | 19, 23, 29, 30, 31, 32, 51 |
| 118 - Ağdam şəhər | 1, 28 |
| 119 - Ağdam kənd | 21, 35 |

***Qeyd:*** *Ermənistan tərəfindən əraziləri işğal edilmiş rayonları əhatə edən 6 seçki dairəsi üzrə (120 saylı Cəbrayıl - Qubadlı, 121 saylı Laçın, 122 saylı Xankəndi, 123 saylı Kəlbəcər, 124 saylı Şuşa - Ağdam - Xocalı - Xocavənd, 125 saylı Zəngilan - Qubadlı) veb-kameraların quraşdırılması nəzərdə tutulmamışdır.*

# 9 fevral Milli Məclisə seçkilər günüdür

## Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının bəyanatı

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonu işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir.

Ermənistanın işğalı nəticəsində Azərbaycan Respublikasının vətəndaşları olan Dağlıq Qarabağ bölgəsinin erməni icması digər konstitusion hüquqları ilə yanaşı, seçki hüquqlarından da məhrum olmuşdur. Ermənistan bu ərazilərdə dəfələrlə saxta seçki şousu yaratmağa cəhd göstərmişdir. Azərbaycan ərazilərində seçkilərin keçirilməsinin əsasını Azərbaycan Konstitusiyası və Seçki Məcəlləsi təşkil etdiyi üçün bu "seçkilər" qeyri-legitimdir və beynəlxalq ictimaiyyət tərəfindən tanınmır.

Ermənistanın hərbi təcavüzü nəticəsində ölkə ərazisindəki 125 seçki dairəsindən 7-nin ərazisi tamamilə, 3 seçki dairəsi ərazisinin isə bir hissəsi işğal altındadır. Bununla yanaşı, digər 4 seçki dairəsi ərazisində də məcburi köçkün məntəqələri mövcuddur. Doğma torpaqlarından zorla didərgin salınmış məcburi köçkün vətəndaşlarımızın Azərbaycan Respublikasının Milli Məclisinə 2020-ci il fevralın 9-na təyin edilmiş seçkilərdə öz konstitusion hüquqlarından istifadə edə bilmələri üçün 523 seçki məntəqəsi yaradılıb və respublika ərazisində fəaliyyət göstərən digər seçki məntəqələri kimi bu məntəqələr də seçki gününə tam hazır vəziyyətə gətirilib. Məcburi köçkün vətəndaşlarımızın respublikanın bütün regionlarına səpələnməsi onların səsvermələrinin təşkilini nə qədər çətinləşdirsə də, böyük zəhmət və gərgin iş sayəsində bu qəbildən olan vətəndaşlarımızın da səsvermə hüquqlarının tam təmin edilməsi üçün şərait və hərtərəfli imkan yaradılıb.

İndiyə qədər ölkəmizdə keçirilən seçki və referendumlarda Ermənistanın təcavüzü nəticəsində öz doğma yurdlarından didərgin salınan Azərbaycan vətəndaşlarının seçki hüquqlarının təmin olunduğunu və milli mənsubiyyətinə görə vətəndaşlar arasında heç bir fərq qoyulmadığını diqqətə çatdıraraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bəyan edir ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni əsilli Azərbaycan vətəndaşları da digər vətəndaşlarımız kimi bu seçkilərdə öz səsvermə hüquqlarından azad və sərbəst şəkildə istifadə edə bilər və bunun üçün Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq bütün addımların atılmasına hazırdır.

*Bakı şəhəri, 5 fevral 2020-ci il*

## Məntəqələr seçkilərə tam hazırdır

*Əvvəli 1-ci səh.*



Seçki dairəsində ilk dəfə səs verəcək gənclərin siyahısı ayrıca tərtib edilmiş və onlarla görüş keçirilmişdir. Görüşdə ölkəmizin həyatında da mühüm rol oynayan parlament seçkilərinin əhəmiyyəti barədə ətraflı məlumat verilmiş, gənclərin arzu və istəkləri dinlənilmişdir. Yaşı 80-dən yuxarı olan seçicilər də diqqətdən yayınmamışdır. Tərtib edilmiş siyahıya görə parlament seçkilərində yaşı 80-i ötmüş 758 nəfər ahıl qeydiyyata alınmışdır.

Dairənin tibb kollecində yerləşən 24 saylı seçki məntəqəsində də fəallıq gördük. Məntəqənin bütün üzvləri iş başında idilər. Məntəqə seçki komissiyasının sədri Məlahət Musayeva dedi ki, 1431 nəfər seçici qeydiyyatdan keçib. Əhali arasında aparılan söhbətlərdən məlum olur ki, insanlar qarşıdan gələn parlament seçkilərində fəallıq göstərmək fikrindədir.

98 yaşlı Şəkər Nəbiyeva ilə söhbət zamanı dedi ki, ölkəmizdə keçirilən bütün seçkilərdə iştirak edib. Həmişə özü məntəqəyə gələrək istədiyi namizədə səs verib. Heç vaxt təzyiqlə üzləşməyib. Əmin olduğunu bildirdi ki, bu dəfə də belə olacaq, seçkilər ədalətli və şəffaf keçəcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Mərkəzi Seçki Komissiyasının sədri Şanxay Əməkdaşlıq Təşkilatının nümayəndə heyəti ilə görüşüb

Fevralın 5-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Milli Məclisə keçiriləcək seçkiləri müşahidə etmək üçün Azərbaycanda səfərdə olan Şanxay Əməkdaşlıq Təşkilatının nümayəndə heyəti ilə görüşüb.



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan sədr Məzahir Pənahov Şanxay Əməkdaşlıq Təşkilatının nümayəndə heyəti ilə görüşdən məmnunluğunu ifadə edib.

Sədr rəhbərlik etdiyi qurumun beynəlxalq təşkilatlarla əməkdaşlığa hər zaman mühüm əhəmiyyət verdiyini, Azərbaycanda keçirilən seçkilərin daim yerli və beynəlxalq ictimaiyyət tərəfindən maraqla izlənildiyini vurğulayıb. MSK-dakı səmimi qəbula görə təşəkkürlərini bildirən nümayəndə heyətinin üzvləri bir neçə gündən sonra Milli Məclisə keçiriləcək seçkilərlə bağlı son hazırlıq işləri ilə maraqlanıblar. MSK sədri Məzahir Pənahov qonaqların suallarını ətraflı cavablandıraraq ölkə vətəndaşlarının aktiv və passiv seçki hüquqlarının yüksək səviyyədə təmin olunması üçün atılmış addımları diqqətə çatdırıb. Bildirib ki, builki seçkilərin də azad, ədalətli və şəffaf keçirilməsi üçün bütün imkanlar yaradılıb.

Görüş çərçivəsində həmçinin qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

## MDB-nin Müşahidə Missiyası Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı aralıq hesabatını yayıb

Müstəqil Dövlətlər Birliyinin Müşahidə Missiyası fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı aralıq hesabatını yayıb.

AZƏRTAC xəbər verir ki, MDB İcraiyyə Komitəsinin saytında dərc olunmuş hesabat 19 yanvar - 3 fevral dövrünü əhatə edir.

Hesabata görə, monitorinq çərçivəsində MDB-dən olan uzunmüddətli müşahidəçilər Bakı ilə yanaşı, 21 rayon və şəhərdə seçki kampaniyasını izləyiblər və bu qənaətə gəliblər ki, bu sayda namizədin seçki kampaniyasında iştirakı seçki sisteminin açıq olduğunu, ölkədə siyasi plüralizm və seçicilər üçün real seçim imkanının olduğunu göstərir.

Hesabatda deyilir ki, seçki komissiyaları seçkilərin qanunvericiliyə uyğun şəkildə təşkili üçün bütün lazımi tədbirləri görür. Deputatlığa namizədlərə və siyasi partiyalara təbliğat aparmaq üçün bərabər şərait yaradılıb, namizədlər və onların nümayəndələri seçicilərlə aktiv görüşləri davam etdirirlər. Təbliğat kampaniyasının sakit keçdiyini deyən müşahidəçilər hesab edirlər ki, bu, keçirilən dövr ərzində hər hansı ciddi qanun pozuntusunun olmadığını göstərir.

Missiya Mərkəzi Seçki Komissiyası, Baş Prokurorluq, Ali Məhkəmə və Daxili İşlər Nazirliyinə müraciət edərək seçki prosesinin pozulması ilə bağlı vətəndaşlardan daxil olan müraciətlər, onlara baxılmasının nəticələri haqqında məlumat verməyi xahiş edib. Cavablar öyrənildikdən və ümumiləşdirildikdən sonra müvafiq məlumat missiyanın yekun bəyanatında öz əksini tapacaq.

Hesabatda qeyd olunur ki, seçkilərdən sonrakı sənəddə missiya seçki kampaniyasının monitorinqinin nəticələri üzrə yekun rəyini açıqlayacaq.

**Qərar № 20/121**

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 fevral 2020-ci il tarixli 50 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 33 saylı Xətai birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd İzzətli Ruslan Teymur oğlu 2020-ci il fevralın 3-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsinin 22 saylı seçki məntəqəsinin ərazisində yerləşən təşviqat lövhəsində olan təşviqat materialının qəsdən korlanmasını iddia etmiş, bununla bağlı dairə seçki komissiyasının qəbul etdiyi 23 yanvar 2020-ci il tarixli 16/56 saylı Qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələri və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş müddətdə və qaydada verildiyindən Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

R.T.İzzətli müraciətində 2020-ci il yanvarın 17-si saat 00:15 radələrində 33 saylı Xətai birinci seçki dairəsinin 22 saylı məntəqəsinin qarşısındakı lövhənin yuxarı sağ küncündə ona məxsus posterin yapışdırıldığını, lakin həmin gün saat 17:00 radələrində lövhənin yuxarı sağ küncündə digər namizədin təşviqat materialının olmasını, ona məxsus posterin isə cırılaraq ziyan dəymiş halda lövhənin digər yerində təkrar yapışdırıldığını bildirmişdir.

Araşdırma zamanı namizəd R.T.İzzətli ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması ona izah edilmişdir.

Araşdırma ilə müəyyən edilmişdir ki, qeydə alınmış namizəd R.T.İzzətlinin eyni məzmunlu müraciəti dairə seçki komissiyası tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada hərtərəfli araşdırılmış, iddia olunan pozuntular təsdiqini tapmamışdır. Qəbul edilmiş qərarla dairə üzrə qeydə alınmış bütün namizədlərə Seçki Məcəlləsinin tələblərinə əməl edilməsi tövsiyə edilmiş və seçkiqabağı təşviqat materiallarının qəsdən korlanmasının qarşısının alınması məqsədi ilə müvafiq polis bölməsinə müraciət edilmişdir.

Dairə seçki komissiyası müraciətin araşdırılması ilə əlaqədar düzgün hüquqi nəticəyə gələrək polis bölməsinə müraciət etmişdir.

Göstərilənlərlə müəyyən edilir ki, namizəd R.T.İzzətlinin şikayəti əsassız olduğundan təmin edilməməli, gəlinmiş hüquqi nəticə Seçki Məcəlləsinin tələblərinə uyğun olduğundan dairə seçki komissiyasının 23 yanvar 2020-ci il tarixli 16/56 saylı Qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 33 saylı Xətai birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd İzzətli Ruslan Teymur oğlunun 3 fevral 2020-ci il tarixli 50 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 23 yanvar 2020-ci il tarixli 16/56 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*05.02.2020-ci il*

**Qərar № 20/122**

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 yanvar 2020-ci il tarixli 1419 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

35 saylı Xətai üçüncü seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) sədri Q.S.Qaratov Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) 2020-ci il fevralın 5-də yazılı müraciət edərək 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə Azərbaycan Ümid Partiyasının (Ümid Partiyası) həmin seçki dairəsi üzrə məşvərətçi səs hüquqlu üzvlərinin təsdiq edilməsi və müşahidəçilərinin qeydə alınması barədə dairə seçki komissiyasının 16 yanvar 2020-ci il tarixli qərarlarının Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) tələblərinə uyğun qəbul edilmədiyini bildirmiş, bununla bağlı qanuna uyğun tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciətə əlavə edilmiş dairə seçki komissiyasının 16 yanvar 2020-ci il tarixli qərarlarından müəyyən edilir ki, Ümid Partiyası tərəfindən məşvərətçi səs hüquqlu üzvlər və müşahidəçilər təyin edilmiş, onların təsdiq edilməsi və qeydə alınması üçün sənədlər komissiyaya təqdim edilmiş, komissiya Ümid Partiyasının müraciətlərini təmin edərək həmin şəxsləri məşvərətçi səs hüquqlu üzv və müşahidəçi kimi müvafiq olaraq təsdiq etmiş və qeydə almışdır.

Dairə seçki komissiyası tərəfindən həmin qərarların qəbul edilməsi zamanı Seçki Məcəlləsinin 36.6-cı və 148.6-cı maddələrinin tələblərinə düzgün əməl edilməmişdir.

Göstərilənlərlə əlaqədar olaraq, dairə seçki komissiyasının Ümid Partiyasının məşvərətçi səs hüquqlu üzvlərinin təsdiq edilməsi və müşahidəçilərinin qeydə alınması barədə 16 yanvar 2020-ci il tarixli qərarları ləğv edilməli, Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq məşvərətçi səs hüquqlu üzvlərin təsdiq edilməsi və müşahidəçilərin qeydə alınması vəzifəsi dairə seçki komissiyasına həvalə edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 13-cü, 25.2.1-ci, 25.2.22-ci, 28.2-ci, 36.6-cı və 148.6-cı maddələrinə əsasən **qərara alır:**

1. 35 saylı Xətai üçüncü seçki dairəsi dairə seçki komissiyasının Ümid Partiyasının həmin seçki dairəsi üzrə məşvərətçi səs hüquqlu üzvlərinin təsdiq edilməsi və müşahidəçilərinin qeydə alınması barədə 16 yanvar 2020-ci il tarixli qərarları ləğv edilsin, həmin şəxslərə verilmiş müvafiq lövhəciklər etibarsız hesab edilsin, Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq həmin şəxslərin təsdiq edilməsi və qeydə alınması vəzifəsi dairə seçki komissiyasına həvalə edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*05.02.2020-ci il*

**Qərar № 20/123**

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 fevral 2020-ci il tarixli 51, 52 və 53 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsindən qeydə alınmış namizədlər Kəngərli Orxan Rüstəm oğlu, Hüseynov Mehman Rafiq oğlu və Əliyev Etibar Qasım oğlu 2020-ci il fevralın 3-də ayrı-ayrılıqda Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi üzrə qeydə alınmış digər namizəd Quliyev Fərəc İbrahim oğlunun seçkiqabağı təşviqat dövründə M.R.Hüseynovu seçkilərdə iştirak etməkdən çəkindirməklə əlaqədar hərəkətlərini mübahisələndirmiş və müvafiq tədbir görülməsini xahiş etmişlər.

Seçkiqabağı təşviqat dövründə seçki qanunvericiliyinin ehtimal olunan pozuntularına dair daxil olmuş həmin müraciətlər eyni məzmunlu və qeydə alınmış eyni bir namizədlə bağlı olduğundan bir icraatda birləşdirilmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvləri tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə birgə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Qeydə alınmış namizəd O.R.Kəngərli müraciətində M.R.Hüseynovun sosial şəbəkədə yayımladığı audio yazıya əsaslanaraq 31 saylı Suraxanı ikinci seçki dairəsindən namizədliyi qeydə alınmış F.İ.Quliyevin namizədliyinin ləğv olunmasını və müvafiq tədbirlərin görülməsini tələb etmişdir.

Qeydə alınmış namizəd M.R.Hüseynov müraciətində qeyd etmişdir ki, 31 saylı Suraxanı ikinci seçki dairəsindən namizədliyi qeydə alınmış F.İ.Quliyev onun istifadəsində olan mobil telefona zəng vuraraq görüşmək istədiyini bildirmişdir. O, səlahiyyətli nümayəndəsi Ülvi Həsənov və Turan İnformasiya Agentliyinin əməkdaşı Əziz Kərimovla birlikdə F.İ.Quliyevin Nərimanov Rayon Polis İdarəsinin yanında yerləşən seçki qərargahına getmişdir. F.İ.Quliyev onunla təkbətək söhbət etmək istədiyini bildirərək Ü.Həsənov və Ə.Kərimovun görüşdə iştirak etməsinə razı olmamışdır. Söhbət zamanı F.İ.Quliyev ona namizədliyini geri götürəcəyi təqdirdə 15000 (on beş min) manat pul təklif etmiş, gələcəkdə isə komandası ilə bərabər ona hər cür dəstək olacağını, gənclər təşkilatı, QHT yaratmağa kömək göstərəcəyini və s. vəd etmişdir. O, həmin danışıqların audio yazısını internet üzərindən geniş yayımlamışdır. Bu səs yazısında F.İ.Quliyev digər namizədlərin Azərbaycan Respublikasının Konstitusiyası və Seçki Məcəlləsi ilə təsbit edilmiş hüquqlarının kobud şəkildə pozulmasına, özünün əvvəlki üstün mövqeyindən və maddi imkanlarından istifadə etməklə seçkilərdə qanunsuz üstünlük əldə etməsinə, həmçinin öz lehinə səslərin çoxluğunun təmin olunması məqsədilə onu ələ almağa yönəlmiş hərəkətlər etmiş və beləliklə də, seçkinin nəticələrinə təsir məqsədi güdən qanunsuz əməllərə yol vermişdir. Buna görə də o, F.İ.Quliyevin namizədliyinin ləğv olunmasını və müvafiq tədbirlərin görülməsini tələb etmişdir.

31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə qeydə alınmış digər namizəd Əliyev Etibar Qasım oğlu müraciətində tam səmimiyyətlə namizədliyinin qeydə alınmasında və seçki təşviqatında heç bir problemlə üzləşmədiyini göstərmişdir. O, Mərkəzi və dairə seçki komissiyalarının seçkiləri yüksək səviyyədə təşkil etməsinin onları idealları uğrunda mübarizəyə ruhlandırmasını bildirmiş, lakin bu dairədən rəqibləri olan F.İ.Quliyevin digər namizəd M.R.Hüseynova namizədliyini onun xeyrinə geri çəkmək müqabilində rüşvət təklif etməsini seçkini gözdən salmağa cəhd kimi qiymətləndirmişdir. O, sosial şəbəkələrdə kütləvi şəkildə yayılmış audio materiallara əsaslanaraq onlar arasında aparılmış danışıqlarda F.İ.Quliyev tərəfindən namizədlərin Seçki Məcəlləsində təsbit edilmiş hüquqlarının kobud şəkildə pozulmasına yönələn hərəkətlərə yol verildiyini iddia edərək namizədliyinin ləğv edilməsini və müvafiq tədbirlərin görülməsini tələb etmişdir.

Araşdırma prosesində ərizəçilərlə əlaqə saxlanılmış, onlara araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. O.R.Kəngərli və M.R.Hüseynovun komissiyanın iclasında iştirakı təmin edilmiş, E.Q.Əliyev isə üzürlü səbəbdən iclasda iştirak edə bilməyəcəyini vurğulamış və iclasa gəlməmişdir.

Qeydə alınmış namizəd F.İ.Quliyev araşdırmaya dəvət olunmuş və müvafiq izahat vermişdir. O, M.R.Hüseynovla görüşdüyünü təsdiq etmiş, şikayətçi ilə aralarında olan söhbətin təxminən 40 dəqiqə davam etməsini göstərmiş, M.R.Hüseynovun həmin söhbətin audio yazısını montaj edərək təxminən 5-6 dəqiqəlik səs yazısını yayımlamasını bildirmişdir. Bu görüşdə aralarında seçki qanunvericiliyinin, həmçinin qanunların pozulmasına yönələn hər hansı bir hərəkətə yol verilmədiyini qeyd etmişdir. F.İ.Quliyev seçkidən çəkilmək üçün M.R.Hüseynova rüşvət təklif etmədiyini, şikayətçinin xəstəlikdən əziyyət çəkdiyini və analiz verdiyini, əgər cavab müsbət olmazsa, seçkilərdən çəkilərək müalicəyə gedəcəyini bildirdiyini vurğulamışdır. F.İ.Quliyev isə müalicə olunacağı təqdirdə dostlarına da çağırış edərək ona müəyyən maddi köməklik göstərəcəyini bildirmişdir. M.R.Hüseynov onun təkliflərinə qısa müddətdə cavab verəcəyini söyləsə də, sonradan sosial şəbəkələrdə məlum səs yazısını yayımlamışdır. F.İ.Quliyev M.R.Hüseynova müraciət edərək aralarında olan söhbətin səs yazısını kütləvi informasiya vasitələrində tam həcmdə yayımlamasını tələb etmiş, belə olan halda onun mətbuatda və şikayətdə göstərdiklərinin həmin yazıya uyğun olmadığının təsdiqini tapacağını qeyd etmişdir. Məhz bu səbəbdən həmin səs yazısının M.R.Hüseynov tərəfindən ictimaiyyətə tam həcmdə çatdırılmadığını bildirmişdir.

Araşdırma prosesində F.İ.Quliyevin izahatında göstərdiyi hallarla əlaqədar M.R.Hüseynova müraciət edilərək 40 dəqiqəyədək davam etməsi iddia edilən həmin danışıqların səs yazısının tam həcmdə araşdırmaya təqdim olunması istənilmişdir. O, danışıqların tam həcmdə yayımlanmamasını təsdiq etmiş, yayımlanan hissənin montaj olunmadığını, yayımlanmayan hissənin isə seçki prosesi ilə əlaqədar olmadığını göstərmiş, qeyd edilən səs yazısını tam həcmdə komissiyanın iclasına təqdim edəcəyini bildirsə də vədinə əməl etməmişdir.

Qeydə alınmış namizədlər F.İ.Quliyev və M.R.Hüseynov arasındakı danışıqların sosial şəbəkələrdə yayımlanmış səs yazısının dinlənilməsinə, araşdırma prosesində alınmış izahatlara əsasən Seçki Məcəlləsinin 112-1.11.2-ci və 113.1-ci maddələrinin tətbiqi üçün əsasların olması müəyyən edilmişdir.

Seçki Məcəlləsinin 112-1.11.2-ci maddəsində göstərilir ki, Seçki Məcəlləsinin 113.1-ci maddəsinə əsasən seçki subyektinə xəbərdarlıq edilə bilər.

Həmin Məcəllənin 113.1-ci maddəsinə görə namizəd, qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu bu Məcəllənin tələblərini pozduğu hallarda müvafiq seçki komissiyası seçicilərə məlumat vermək şərti ilə həmin namizədə, qeydə alınmış namizədə, siyasi partiyaya, siyasi partiyaların blokuna, referendum üzrə təşviqat qrupuna kütləvi informasiya vasitələri ilə xəbərdarlıq edir.

Qeyd edilənlərə əsasən şikayətin qismən təmin edilməsi və Seçki Məcəlləsinin tələblərinin pozulmasına görə qanunla müəyyən olunmuş qaydada tədbir görülməsi üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 112-1.11.2-ci, 113.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsindən qeydə alınmış namizədlər Kəngərli Orxan Rüstəm oğlunun 3 fevral 2020-ci il tarixli 51 saylı, Hüseynov Mehman Rafiq oğlunun 3 fevral 2020-ci il tarixli 52 saylı və Əliyev Etibar Qasım oğlunun 3 fevral 2020-ci il tarixli 53 saylı müraciətləri qismən təmin edilərək həmin seçki dairəsindən qeydə alınmış namizəd Quliyev Fərəc İbrahim oğluna xəbərdarlıq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*05.02.2020-ci il*

**Qərar № 20/124**

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 3 fevral 2020-ci il tarixli 49 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 78 saylı Lerik seçki dairəsi üzrə qeydə alınmış namizəd Hüseynov Ramil Qələmirzə oğlu və Qafarov Vasif Vaqif oğlu 2020-ci il fevralın 3-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək seçkiqabağı təşviqatın aparılması zamanı qanun pozuntularının baş verdiyini iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Müəyyən edilmişdir ki, namizədlər müraciətdə mübahisələndirdikləri hallara dair 29 yanvar 2020-ci il tarixində Mərkəzi Seçki Komissiyasına müraciət etmiş, həmin müraciətə komissiyanın iclasında baxılmış və 31 yanvar 2020-ci il tarixdə 18/111 saylı Qərar qəbul edilmişdir. Lakin hazırkı müraciət bir hissədə genişləndirilmiş, məntəqə seçki komissiyaları üzvlərinin qeydə alınmış namizəd Məmmədov İqbal Nəriman oğlunun seçkiqabağı təşviqatını aparmaları iddia edilmiş və bununla bağlı iddialara dair fotoşəkillər və video görüntülər müraciətə əlavə olunmuşdur.

Araşdırma zamanı ərizəçilərlə əlaqə saxlanılmış, onlara araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, şikayətçilərdən R.Q.Hüseynov araşdırmada iştirak etmiş, təqdim edilən materiallara onunla birlikdə baxış keçirilmiş və geniş fikir mübadiləsi aparılmışdır.

Məntəqə seçki komissiyaları üzvlərinin qeydə alınmış namizəd Məmmədov İqbal Nəriman oğlunun seçkiqabağı təşviqatını aparması hissəsi üzrə iddialar araşdırılmış və müəyyən edilmişdir ki, 78 saylı Lerik seçki dairəsinin 54 saylı məntəqə seçki komissiyasının üzvü Cəfərov Eldar Tumar oğlu namizədin seçkiqabağı təşviqatında iştirak etmişdir. Bu isə namizəd İ.N.Məmmədovun təşviqat qaydalarını pozması kimi başa düşülə bilməz.

Beləliklə, araşdırma nəticəsində müəyyən edilmişdir ki, şikayət məntəqə seçki komissiyasının üzvü tərəfindən seçkiqabağı təşviqatın aparılması qaydalarının pozulmasına yol verilməsinə dair hissədə təmin edilməli, digər hissələrdə isə öz təsdiqini tapmadığından təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 78 saylı Lerik seçki dairəsi üzrə qeydə alınmış namizədlər Hüseynov Ramil Qələmirzə oğlu və Qafarov Vasif Vaqif oğlunun 3 fevral 2020-ci il tarixli 49 saylı müraciəti məntəqə seçki komissiyası üzvünün seçkiqabağı təşviqatın aparılması qaydalarının pozulması hissəsində təmin edilsin, digər hissələrdə əsassız olduğundan təmin edilməsin.
2. Müraciət 54 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının üzvü Cəfərov Eldar Tumar oğlunun qanuna zidd hərəkətləri hissəsində müvafiq tədbir görülməsi üçün 78 saylı Lerik seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*05.02.2020-ci il*

Sabahı düşünərkən

# Bəşəriyyəti dəyişdirəcək inqilab

## Prezident yeni hədəfi müəyyənləşdirdi: 4-cü sənaye inqilabında Azərbaycan lider olmalıdır

*Əvvəli 1-ci səh.*

### Tarixdəki sənaye inqilabları

Neolit inqilabı eradan əvvəl XI-X minillikdə ibtidai insanların ilk dəfə oturaq həyata keçərək buğda və digər bitkiləri əkməyə, heyvanları əhilləşdirməyə başlaması ilə baş verdi. Yəni insanın istehlakçı mövqeyindən həm də istehsalçı mövqeyinə keçməsi mühüm iqtisadi inqilab idi.

XVIII əsrin ortalarında suyu və buxarı istifadə edərək, istehsalı müəyyən qədər mexanikləşdirməklə birinci sənaye inqilabı baş verdi. Birinci sənaye inqilabının əsas mahiyyəti su və buxar enerjisi ilə əl əməyinin mexanikləşdirilməsindən ibarət idi. Bu dövrün əsas ixtirası da məhz buxar maşınıdır. Bu inqilabın nəticəsində manufakturalar və fabriklər yarandı, toxuculuq sənayesi sürətlə inkişaf etdi, ilk mexaniki dəzgahlar ortaya çıxdı, enerji mənbəyi kimi odun və daş kömürdən istifadə olundu. 1760-cı illərdə Böyük Britaniyada başlayan birinci sənaye inqilabı 1800-cü illərdə Avropa və Şimali Amerikaya yayıldı.

İkinci sənaye inqilabı zamanı bəşəriyyət elektriklə tanış oldu. Elektrik enerjisinə bağlı texnologiyalardan istifadə hesabına baş verən bu inqilab kütləvi istehsalın yaradılmasına imkan verdi, istehlak bazarları formalaşdı. Kömürdən əlavə, əsas enerji mənbəyi karbohidrogen yanacağı oldu. Elektrik istehsalının təməl prinsipləri 1820-ci illərin sonu, 1830-cu illərin əvvəllərində Faradey tərəfindən kəşf olunmasına baxmayaraq, istehsal sahələrində 1870-ci ildən etibarən tətbiq edildi. Dinamo ilə hidravlik turbinin kommersiya məqsədli istehsalı və elektrik enerjisinin mexaniki istehsalı ikinci sənaye inqilabını başlatdı. Beləliklə, ikinci sənaye inqilabı polad, neft və elektrik kimi yeni sənaye sahələrinin yaranması ilə xarakterizə edilir. Telefon, ampul və daxili yanma mühərriki ən önəmli ixtiralar hesab olunur.

Ötən əsrin ortalarında isə üçüncü sənaye inqilabı baş verdi: insanlar elektronika və texnologiya sayəsində istehsalı avtomatlaşdıra bildilər. Üçüncü sənaye inqilabı elektronika və informasiya texnologiyaları ətrafında inkişaf edib postsənaye və ya informasiya dünyası adlandırılan fenomeni doğurdu. "Rəqəmsal inqilab" kimi də tanınan bu dövrdə kompüter və internet ixtira edildi. Beləliklə, 1970-ci illərdən XXI əsrin ilk onilliyinə qədər davam edən yeni sənaye inqilabı ərzində kompüterlərdən istifadə, smartfonların, internetin geniş yayılması istehsala böyük təsir etdi. Sənayenin qloballaşması da bu dövrdən başladı. Üçüncü sənaye inqilabı insan əməyindən az istifadə edilməsi və istehsalın avtomatlaşdırılması olaraq qəbul edilir.

### "Bəşər" və "insan" sözünün tərifini dəyişəcək inqilab

Hazırda isə dünyada növbəti - dördüncü sənaye inqilabı baş verir. Dördüncü sənaye inqilabı ifadəsini ilk dəfə Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri Klaus Şvab işlədib. Şvab öz kitabında yeni sənaye inqilabının potensialının böyük olduğunu və bu inqilabı bəşəriyyət üçün həm böyük şans, həm də görülməmiş təhlükə kimi qeyd edib.

Bəs üçüncü sənaye inqilabı ilə dördüncü arasındakı fərq nədən ibarətdir? Mütəxəssislər əsas fərqi texnologiyanın insan həyatına daha çox təsirində və onun daha sürətlə inkişaf etməsində görürlər. Nümunə kimi telefonu götürək: telefon 100 milyon istifadəçiyə 75 ildə çatdığı halda "İnstagram" bunu 2 ildə, "Pokemon Go" isə sadəcə 1 ay ərzində həyata keçirdi. "3D Printing" dördüncü sənaye inqilabı dövründə sürətlə inkişaf edən texnologiyaya dair başqa bir nümunədir.




Dördüncü sənaye inqilabında iş yerlərində ağıllı texnologiyaları tətbiq etməklə üçüncü inqilabın avtomatlaşdıra bilmədiyi bütün sahələr avtomatlaşdırıla bilər. Bu sənaye inqilabını fərqləndirən əsas cəhət onun sürəti, əhatə dairəsi və sistematik effektidir. O, istehsalın və idarəetmənin avtomatlaşdırılmış və robotlaşdırılmış vasitələrinə əsaslanır.

Bəs dördüncü sənaye inqilabına keçid reallaşıbmı? Süni intellekt və müxtəlif sahələrdə robotlaşmanın artması, 3D-printer, dronlardan istifadə, bərpa olunan enerjidən istifadənin artması, elektrikli maşınların çoxalması, sürücüsüz nəqliyyat vasitələrinin yaradılması, genlərin redaktə edilməsi, insan bədəninə implantasiya edilmiş telefon, blokçeyn vasitəsilə verginin toplanması, nanotexnologiya, biotexnologiya və s. daxil olmaqla ən geniş sahələrdə heyrətamiz texnoloji sıçrayışlar dördüncü sənaye inqilabının başladığını deməyə əsas verir.

Süni intellekt və sürücüsüz avtomobillər kimi texnoloji nailiyyətlər sayəsində texnologiya günbəgün həyatımıza, hətta bədənimizə də daha çox təsir edir.

Rəqəmsallaşmanı, texnologiyaların birləşməsini, fiziki, rəqəmsal və bioloji sferalar arasında sərhədlərin aradan qalxmasını səciyyələndirən dördüncü sənaye inqilabında dəyişikliklərin xüsusiyyəti o qədər fundamentaldır ki, dünya tarixi həm böyük imkanlar, həm də potensial təhlükələrlə dolu olan buna bənzər bir dövrlə hələ qarşılaşmayıb. Bu inqilab miqyası, həcmi və mürəkkəbliyi baxımından bəşəriyyətin bütün əvvəlki təcrübələrinin heç birinə bənzəmir. Təsadüfi deyil ki, Dünya İqtisadi Forumunun "2018 Qlobal Rəqabətlilik Hesabatı"nda qeyd edilmişdi ki, dördüncü sənaye inqilabının mürəkkəbliyi, əhatə dairəsi və miqyası o qədər geniş olacaq ki, bəşəriyyətin yaşayış şəraiti, həyat normaları və düşüncə tərzi tamamən dəyişəcək. Bəzi alimlər hətta bu inqilabın "bəşər" və "insan" sözünün tərifini dəyişəcəyini iddia edirlər.

Dördüncü sənaye inqilabının əsas ümidverici potensialı bəşəriyyət üçün həyatı daha da asanlaşdırması və yaşayış şəraitinin keyfiyyətinin yüksəlməsidir. Məsələn, yeni ağıllı cihazların tətbiqi ilə insanlar təbiət hadisələri haqda daha öncədən xəbər tutmaqla itkilərin qarşısını müəyyən qədər ala biləcəklər. İnsanların orta yaş həddi artacaq və yeni texnologiyanın tətbiqi ilə əvvəllər çarəsi tapılmayan xəstəliklərin həlli mümkün olacaq. Ümumiyyətlə, yeni texnologiyaların tətbiqi ilə bütün istiqamətlərdə görünməmiş rəqəmsal inkişaf olacaq ki, bu da istehsal və iqtisadiyyatda insan faktorunun rolunu azaldacaq. İtellekt adlandırılan dördüncü sənaye inqilabı bütün sahələrdə insanların rolunu minimuma endirəcək. Bu da əmək bazarında kütləvi işsizliyə səbəb olacaq. Texnologiyanın tətbiqindən əvvəl minlərlə işçiyə tələbi olan müəssisələr yeni texnologiyalar sayəsində bir neçə işçi ilə eyni həcmdə istehsal edə biləcəklər. İnsanların qabiliyyəti yalnız texnologiyanın tətbiqi ilə ölçüləcək. Bu isə o deməkdir ki, əmək bazarında tələbi texnoloji qabiliyyət formalaşdıracaq. Bəzi peşə və ixtisaslar, ümumiyyətlə, yoxa çıxacaq.

### İnnovasiya, süni intellekt və robot dövrü

Dünya İqtisadi Forumunun 2018-ci il hesabatına görə, 2020-ci ildə dünyada təxminən 4.7 milyon ofis işçisi, istehsalatda 1.6 milyon, tikintidə isə təxminən 500 min insan iş yerini itirəcək. Lakin eyni zamanda biznes və maliyyə sahəsində 500 min, menecment və İT sahəsində 400 min, memarlıq və mühəndislik sahəsində 300 min, satış sahəsində isə 300 min yeni iş yeri yaranacaq. Robotlaşma təkcə insanların öz iş yerlərini itirməsi ilə deyil, həmçinin biznesin ən fərqli sahələrində: menecment, İT, robotlaşma, mühəndislik, elektroenergetika, marketinq və satışda yeni imkanların yaranması ilə müşayiət olunacaq.

Analitiklərin hesablamalarına əsasən, yeni texnologiyalar sayəsində məhsuldarlıq yaxın 4 il ərzində orta hesabla 30 faiz artacaq. "Tamamlama strategiyası" adlandırılan siyasət nəticəsində istehsalın avtomatlaşdırılmasını həyata keçirməyə hazırlaşan bir sıra kompaniya və şirkətlər sadəcə insanları robotlarla əvəz etməyəcəklər, məhsuldarlığı əhəmiyyətli dərəcədə yüksəldib, əməliyyatların bir hissəsini mexanizmlərə və alqoritmlərə keçirəcəklər. Böyük şirkətlərdə çalışan işçilərin 54 faizi peşəsini dəyişmək, bacarıq və səriştələrinin səviyyəsini artırmaq məcburiyyətində olacaq.

Dördüncü sənaye inqilabının digər bir problemi şəxsi məlumatların məxfiliyi və gizliliyi barədədir. Qida sənayesindən tutmuş bank və toxuculuğa qədər şirkətlər öz müştəriləri haqda müxtəlif yollarla məlumatlar toplayırlar. Artıq istifadəçiləri də şirkətlərin onların şəxsi həyatı barədə bu qədər məlumatlı olması narahat edir. Mütəxəssislər indidən kvant kompüterlərinin tətbiqi ilə dünyada kiber təhlükəsizliyin qalmayacağını, internetdə istənilən şəxsi məlumatın təhlükə altında olacağı fikrindədirlər. İnsanların bütün fəaliyyəti kvant kompüteri olan şəxslər tərəfindən izlənilə bilər. Həmçinin iş yerlərində və cəmiyyətdə robot və texnologiyaların tətbiqi dünyada "xalq mədəniyyəti" anlayışının yox olması təhlükəsini qaçılmaz edir. Yeni texnologiyaların tətbiqi o qədər qorxulu ola bilər ki, hətta insanların öz ruhlarını və şəxsi keyfiyyətlərini itirməsi də mümkündür. Dördüncü sənaye inqilabı digər inqilablardan fərqli olaraq insanı gücləndirmək və inkişaf etdirmək yerinə, insanın özünün bir neçə sətir proqram kodu ilə əvəz edilməsi ilə nəticələnə bilər. Sadalanan və sadalanmayan problemlərə rəğmən, dördüncü sənaye inqilabının həyatımızı kəskin şəkildə dəyişməsi faktı danılmazdır. Əsas məsələ bu dəyişikliyin necə idarə olunmasıdır.

Dördüncü sənaye inqilabı müasir dövrün ən aktual mövzularından biridir. Bu, innovasiya, süni intellekt və robotlar dövrü deməkdir. Bu gün dünya ölkələri "Sənaye 4.0" üzərində ciddi işlər aparırlar. Hazırkı dövr bizdən artan rəqabətə tab gətirmək üçün yeni strategiyalar düşünməyi tələb edir. Çünki dördüncü sənaye inqilabı iqtisadiyyatının rəqabət qaydaları əvvəlki dövrlərin qaydalarından fərqlənir. Burada rəqabətə tab gətirmək, yeni texnologiyalarla ayaqlaşmaq, geri qalmamaq, əhəmiyyətli inkişafa nail olmaq üçün bütün sahələrdə innovasiyaları tətbiq etmək və ölkədə innovasiya sistemini inkişaf etdirmək lazımdır. Bunun üçünsə "Sənaye 4.0" şəraitində Azərbaycanda innovasiyaları tətbiq etmək imkanına sahib olan, ekosistemi dərindən bilən intellektualların yetişməsi və sayının çox olması vacibdir. Çünki ölkənin İT ekosisteminin yenilənməsi və inkişafı üçün yüksək peşəkarlığa sahib İT mütəxəssisləri olmalıdır.

Prezident İlham Əliyevin də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda dediyi kimi, Azərbaycan dördüncü sənaye inqilabında lider olmalıdır: "Ölkəmizin əhəmiyyətini, rolunu və bizə olan münasibəti əks etdirən son hadisə Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində Davos Forumu ilə Azərbaycan arasında dördüncü sənaye inqilabı üzrə Bakıda regional mərkəzin yaradılması hadisəsidir. Bu, çox əlamətdar hadisədir. Çünki Davos Ümumdünya İqtisadi Forumu dünyada birnömrəli forumdur, bundan yuxarısı yoxdur. Bu, həm siyasi, həm iqtisadi sahədə nömrə birdir və bu bölgədə - Cənubi Qafqazda, Orta Asiyada Azərbaycanı mərkəz kimi seçmək, əlbəttə, böyük hadisədir, mən və forumun prezidenti niyyət protokolunu imzaladıq, indi işlər başlanacaq və dördüncü sənaye inqilabında Azərbaycan lider olmalıdır. Necə ki, Davos Forumu bizi lider kimi görür, biz də lider olmalıyıq. Ona görə ki, bu, gələcək inkişafımız deməkdir. Biz elmi tərəqqini, inkişafı təmin etməliyik, ölkəmizi gələcəyə aparmalıyıq, müasirləşdirməliyik. Beləliklə, hesab edirəm ki, bu hadisə bizim növbəti uğurumuzdur, növbəti qələbəmizdir. Əminəm ki, bundan sonra qələbələrimizin sayı çox olacaq".

***Xəyalə MURADLI, "Azərbaycan"***

# UNEC daha bir reytinqdə yenidən 1-ci oldu




Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) uniRank reytinq təşkilatının 2020-ci ilin fevralında açıqladığı "Dünya universitetlərinin reytinqi"ndə ölkə birincisi olub.

200-dən artıq ölkədə rəsmi qeydiyyatdan keçmiş 13 mindən çox ali təhsil müəssisəsinin təhlili nəticəsində müəyyən edilən reytinq sıralmasında UNEC ötən illə müqayisədə 497 pillə irəliləyərək dünyada 225-ci yerə yüksəlib.

uniRank-ın regional reytinq göstəricisi olan "Asiyanın 200 ən yaxşı universiteti" sıralanmasında isə UNEC 167 pillə irəliləyərək qitənin 27-ci ən yaxşı universiteti seçilib. Bu sıralamada UNEC Yaponiyanın (Osaka Universiteti, Waseda Universiteti), Çinin (Shenzen Universiteti, Pekin Normal Universiteti), Türkiyənin (Boğaziçi Universiteti, İstanbul Universiteti) və regionun bir sıra digər məşhur universitetlərini qabaqlayıb.

Qeyd edək ki, 2005-ci ilin may ayından etibarən ildə iki dəfə nəşr olunan uniRank akkreditasiya olunan ali təhsil müəssisələrinin veb populyarlığı üzrə təhlilini ehtiva edən beynəlxalq ali təhsil direktoriyası və axtarış sistemidir. Reytinq dünya üzrə 13.600 universitet və kolleci əhatə edir.

Reytinq 4 veb mənbədən alınan 5 müstəqil veb ölçmələrə əsaslanan alqoritm üzrə aparılır. uniRank-ın ölçü komponentlərini Moz Domain Authority, Alexa Global Rank, SimilarWeb Global Rank, Majestic Reffering Domains və Majestic Trust Flow təşkil edir.

# Pambıqçılığın inkişafı emal sənayesinin yaradılması ilə uzlaşdırılmalıdır

## Bu, iqtisadiyyatın şaxələndirilməsi, ixracın artması, yeni iş yerləri və əlavə gəlirlər deməkdir



*Əvvəli 1-ci səh.*

Bu da öz növbəsində kənd təsərrüfatının sənaye ilə uzlaşması kimi mühüm bir məsələni ortaya çıxarır. Məhsul artdıqca emal müəssisələri də çoxalmalıdır. Bu, aqrar sektorda demək olar ki, bütün sahələrə - pambıqçılığa, tərəvəzçiliyə, meyvəçiliyə, tütünçülüyə, üzümçülüyə və s. aiddir.

Pambıqçılığa verilən önəm bu sahədə də emal müəssisələrinin sayının çoxalmasını tələb edir. Məlum olduğu kimi, keçən il pambıq istehsalı rekord həddə çatıb. Tarlalardan 294 min ton məhsul toplanıb. Hər hektardan məhsuldarlıq 30 sentnerə yaxın olub ki, bu da sovet dövrünün özündə belə cəmi bir neçə dəfə qazanılan göstəricidir.

Bütün bunlar Prezident İlham Əliyevin son illər pambıqçılığın inkişafı ilə bağlı imzaladığı sənədlər, verdiyi tapşırıq və tövsiyələrin nəticəsində mümkün olub. Pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramının təşviqi sahənin irəliləyişinə xüsusi təkan verib. Əgər 2017-ci ildə ölkədə 200 min tondan çox pambıq toplanmışdısa, növbəti ildə bu rəqəm 230 min tonu keçmişdir. Keçən il isə daha az sahədə pambıq əkməklə məhsuldarlığın artırılması hesabına 290 min tondan çox məhsul götürüldü.

Sahənin yüksək templə inkişafı yeni istehsal və emal müəssisələrinin istifadəyə verilməsinə ehtiyac yaratdı. Onlar üçün məkan seçildikdə isə ilk növbədə tekstil sənayesində təcrübəsi və ənənəsi olan Mingəçevir şəhəri münasib sayıldı. Beləcə, bu şəhərdə Sənaye Parkı yaradıldı və 14 hektar ərazidə "Mingəçevir Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyətinin iki iplik fabrikinin tikintisinə başlandı.

Mingəçevir Sənaye Parkının təməli 2016-cı ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Sözügedən fabriklərin yaradılmasına dövlət tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Zəruri infrastruktur təmin edilib. Layihə Sənaye Parkının rezidenti olaraq 10 il müddətinə mənfəət, torpaq və əmlak vergilərindən, eləcə də idxalda ƏDV-dən azadolma imkanını qazanıb.

Dövlət qayğısının bariz nümunələrindən biri də odur ki, şirkət təkcə fabriklərin yaradılması ilə bağlı idxal edilən avadanlıqlara görə 12 milyon manatdan çox ƏDV və gömrük rüsumlarına qənaət edib.

Qeyd edək ki, bu fabriklərdə buraxılan iplikərin Open End və Ring növlərinə hazırda bütün dünyada tələbat var. Ona görə də burada istehsal edilən yüksək keyfiyyətli pambıq ipliklərinin ixracına başlanması xüsusi önəm kəsb edən hadisədir. 2018-ci ildə istehsal olunan 4 min tona yaxın məhsulun 3 min tonu ixrac edilib. Keçən il isə istehsal 12 min ton olub və bunun 10 min tonu, yəni 83 faizi xarici bazara göndərilib. Azərbaycan pambığından hazırlanan həmin iplikləri Rusiya, Türkiyə, Portuqaliya, Belçika, Ukrayna, Polşa, Pakistan və digər ölkələr alıb.

Bu gün "Mingəçevir Tekstil" artıq brendə çevrilib. İki iplik fabriki ölkədə yüngül sənayenin, əsasən də tekstil sənayesinin inkişafına, yerli müəssisələrin xammalla təmin olunmasına və pambığın hazır məhsula çevrilərək ixraca yönləndirilməsinə imkan verir. Bütün bunlar ölkəmizə əlavə xarici valyutanın daxil olması, idxaldan asılılığın azaldılması, milli tekstil brendlərinin yaradılması, yüksək ixtisaslı kadrların hazırlanması və yeni iş yerlərinin açılması deməkdir.

2020-ci ildə də irəliyə doğru addımlar atılacaq. Yeni növ ipliklərin istehsalı planlaşdırılıb. Bu eləcə də yeni iş yerlərinin açılmasına səbəb olacaq. Qeyd edək ki, hazırda iki iplik fabrikində üçnövbəli iş rejimində 700 nəfərdən çox işçi çalışır.

Regionların sosial-iqtisadi inkişafına yönəldilən dördüncü Dövlət Proqramının birinci ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev pambıq emalı sənayesinin miqyasını xeyli genişləndirməyin vacib olduğunu qeyd edib. Bunun üçün ardıcıl tədbirlərin həyata keçirilməsi üçün göstəriş və tövsiyələr verib: "Pambıqçılıq birbaşa emal sənayesini şərtləndirir. Bizdə pambıqçılıqda 46 faiz artım var. İxrac keçən il 158 milyon dollar olubdur. Ancaq biz pambığın 50 faizini ölkəmizdə emal edə bilirik. Ona görə də nə lazımdır, yeni iplik fabrikləri, ondan sonra tekstil fabrikləri, daha sonra hazır məhsul fabrikləri. Bu zəncir bir-birinə bağlıdır, ona görə sahibkarlar bu sahəyə diqqət yetirsinlər və dövlət orqanları sahibkarları bu istiqamətlərə yönəltsinlər. Beləliklə, yüngül sənayenin inkişafı təmin ediləcək, iş yerləri yaradılacaq, hazır məhsul istehsal edəcəyik, hazır məhsulu idxal etməyəcəyik. Aydın məsələdir, bunlar bir-biri ilə bağlıdır. Pul burada, ölkəmizdə qalacaq".

***Flora SADIQLI, "Azərbaycan"***

# ABŞ-ın Nyu Meksiko ştatının Senatı 20 Yanvar faciəsinin 30-cu ildönümünə dair bəyannamə qəbul edib

ABŞ-ın Nyu Meksiko ştatının Senatı fevralın 4-də 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı geniş bəyannamə qəbul edib.

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildiriblər ki, bəyannamədə faciə kəskin şəkildə pislənilərək, azadlıq mübarizəmizin ilk qurbanlarının xatirəsi hörmətlə anılıb.

Qeyd edilib ki, Senatın plenar iclasında qəbul olunan bəyannamə Azərbaycanın Los-Ancelesdəki baş konsulluğuna göndərilib. Ölkəmizin Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev Senatın rəhbərliyinə məktub ünvanlayaraq, bu tarixi bəyannaməyə görə amerikalı senatorlara təşəkkürünü bildirib.

Senatın plenar iclasında oxunan bəyannamədə 1918-ci ildə Azərbaycan xalqının müsəlman dünyasında ilk dünyəvi və demokratik respublika yaratdığı, ancaq iki il sonra bolşevik işğalı nəticəsində müstəqilliyinə son qoyulduğunu və Azərbaycanın 71 il ərzində sovet əsarətində qaldığı bildirilir. Qeyd olunur ki, Azərbaycan xalqının azadlıq arzularını boğmaq üçün




1990-cı il yanvarın 20-də Sovet İttifaqının 26 minlik qoşunu Bakıda mülki əhaliyə qarşı amansız qırğın törədərək, aralarında uşaqlar, qadınlar və yaşlılar da olmaqla, çox sayda günahsız insanı qətlə yetirib. Vurğulanır ki, bu qətliam azadlıq uğrunda mübarizədə Azərbaycan xalqının qətiyyətini daha da gücləndirərək, 1991-ci ildə Azərbaycanın öz müstəqilliyini bərpa etməsinə gətirib çıxarıb.

Sənəddə həmçinin qeyd olunur ki, Azərbaycan hazırda ABŞ-ın regional müttəfiqi və dostudur, Nyu Meksikoda baş konsul və fəxri konsulla təmsil olunan Azərbaycan son illərdə bu ştatla sıx münasibətlər qurub.

Bəyannamənin sonunda vurğulanır ki, Nyu Meksiko Senatı 20 Yanvar faciəsinin 30-cu ildönümünü, Azərbaycanın azadlıq və müstəqillik mübarizəsinin qurbanlarının xatirəsini hörmətlə anır.

Qeyd edək ki, Azərbaycanın Nyu Meksikodakı fəxri konsulu Art Makhaffi də plenar iclasda iştirak edib. Bəyannamə senator Ortiz i Pino tərəfindən fəxri konsula təqdim olunub.

# Baş Prokurorluq Nərmin Quliyevanın öldürülməsi ilə bağlı yayılan anonim informasiyalarla bağlı məlumat yayıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu Tovuz rayonunda azyaşlının qəsdən öldürülməsi faktı üzrə son günlər bəzi sosial şəbəkələrdə və ayrı-ayrı internet informasiya resurslarında müxtəlif anonim informasiyaların yayılması ilə bağlı məlumat yayıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, həmin faktla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində tam, hərtərəfli və obyektiv istintaq-əməliyyat tədbirləri davam etdirilməklə həmin informasiyalar öyrənilir və araşdırılması təmin olunacaq.

İstintaq-əməliyyat qrupu tərəfindən həmin qətllə bağlı məlumatlı olan şəxslərdən +994 12 440-75-25 və +994 12 440-79-25 nömrəli telefonlara müraciət etmələri xahiş olunur. Məlumat vermiş şəxslərin anonimliyinə və təhlükəsizliyinə təminat verilir.

Kütləvi informasiya vasitələrinə aidiyyəti dövlət qurumlarının mətbuat xidmətləri ilə dəqiqləşdirmələr aparılmadan istintaqın maraqlarına zidd olmaqla konfidensial informasiya hesab edilən məlumatların yayılmasına yol verməmələri bir daha tövsiyə edilir.

İstintaqın gedişatı ilə bağlı zərurət yarandıqda ictimaiyyətə əlavə məlumat veriləcək.

# Səhv düşəndə fəsillər

## Azərbaycanda qışda yaz havasının səbəbləri və fəsadları

Artıq bir neçə ildir ki, Azərbaycanda qış fəsli sözün əsl mənasında yaz kimi keçir. Qar görmək bir yana, heç şaxtalı, soyuq havalar da demək olar ki, müşahidə olunmur. Hava haqqında məlumatlara görə, yaxın günlər ərzində də Azərbaycanda temperaturun 15-18, bəzi yerlərdə isə hətta 20 dərəcə olacağı ehtimal edilir.

Bəs qışda bu cür mülayim havanın müşahidə edilməsinin səbəbləri nədir? Bu halın təbiətə, insan sağlamlığına, ümumiyyətlə, həyatın normal axınına nə kimi təsirləri var?



### Bu qışda hələ ki, bir gün də şaxta qeydə alınmayıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin direktoru Umayra Tağıyeva məlumat verir ki, bu il ölkəmizdə yumşaq qış müşahidə edilir. İqlim dəyişmələri nəticəsində Azərbaycanda qış ayları daha mülayim keçir, şaxtalı günlərin sayı azalır. Çoxillik normaya əsasən Bakıda yanvar ayında şaxtalı günlərin orta çoxillik sayı 6 gündür. Lakin bu qış hələ ki, bir gün də şaxta qeydə alınmayıb, yalnız ayın 25-də havanın temperaturu 0 dərəcəyə yaxınlaşıb. 2020-ci il yanvar ayında orta aylıq iqlim normasından 1.6 dərəcə yüksək olub. Ən isti gün isə yanvarın 23-də olub və havanın temperaturu müsbət 12.3 dərəcəyədək yüksəlib, lakin rekord göstərici qeydə alınmayıb. Çünki Bakı şəhərində ən yüksək temperatur 1979-cu il yanvar ayının 4-də qeydə alınıb və həmin gün havanın temperaturu müsbət 22.3 dərəcə olub.

Son onilliklərdə fevral ayında ən soyuq gün 2012-ci il fevralın 8-də qeydə alınıb. Həmin gün minimal temperatur Bakıda mənfi 11 dərəcəyədək aşağı enib. Ən isti gün isə 2005-ci il fevralın 28-də 23.2 dərəcədə müşahidə edilib.

2020-ci il fevral ayında havanın orta aylıq temperaturunun iqlim normasına yaxın, bəzi yerlərdə 2 dərəcə, respublikanın dağlıq və dağətəyi rayonlarında isə 3-4 dərəcə yüksək olacağı gözlənilir.

### Ən isti onillik

Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun elmi işlər üzrə direktor müavini, coğrafiya üzrə fəlsəfə doktoru, iqlimşünas Məhərrəm Həsənov söyləyir ki, artıq bir neçə ildir Azərbaycanda qış fəslində havanın temperaturu ona səciyyəvi olmayan halda, yəni normadan 3-4, bəzi hallarda isə 5 dərəcəyə qədər yüksək müşahidə edilir. Bu hal xüsusilə Mərkəzi Aran rayonlarına, Qobustana, Abşerona, o cümlədən Bakıya aiddir: "Ümumiyyətlə, təkcə qış deyil, yay və payız fəsli üçün də havanın temperaturu normadan bir qədər yüksəkdir. Ümumdünya Metereologiya təşkilatının qəbul etdiyi qərara görə 1961-1990-cı illərdə ortalama iqlim göstəriciləri bütün dünya üçün norma kimi qəbul edilir. Azərbaycan da həmin qərarı ratifikasiya etdiyinə görə temperatur, yağıntı və digər iqlim göstəricilərini o dövrlə müqayisə edirik".

M.Həsənli qeyd edir ki, son 2 onillik həm beynəlxalq aləmdə, həm də Azərbaycanda ən isti dövr kimi qeyd edilir. Havanın temperaturu ötən ilin noyabr, dekabr, bu ilin yanvar ayında normadan 3-4 dərəcə civarında yüksək müşahidə edilir: "Sözsüz ki, bu da ümumi qlobal iqlim dəyişmələri ilə bağlı olan prosesdir. Dünyada da qlobal istiləşmə prosesi gedir, məsələn, son illər dünyada havanın temperaturu normaya nisbətən təqribən 1,5 dərəcə yüksəlib. Bizim ölkəmizdə isə havanın temperaturu 1991-ci ildən bəri 0,6-1,5 dərəcə civarında yüksəlib. Bu yüksəlmə Azərbaycan Respublikasının hər yerində müşahidə edilir. Bu da isti hava dalğalarının yay aylarında daha çox təkrarlanması, yəni orta sutkalıq temperaturun 35 dərəcədən yuxarı olduğu dövrlərin daha çox olması, isti havalı günlərin daha çox davam etməsi və tez-tez təkrarlanması kimi özünü büruzə verir".

Mütəxəssis onu da bildirir ki, normalarla müqayisə edildikdə ölkəmizdə yanvar qışın ən soyuq ayı hesab edilirdi. Lakin 2-3 ildir ki, fevralda yanvara nisbətən temperatur bir qədər az müşahidə olunur: "Bu il isə yanvar ayı başa çatıb, fevral ayının əvvəlidir, amma isti hava şəraiti hələ ki, davam edir. Bu isə fevral ayının əvvəli üçün səciyyəvi olan temperatur deyil və normadan bir neçə dərəcə yüksəkdir".

### Yer Günəşdən aldığı istiliyi yuxarı təbəqələrə, atmosferə yaya bilmir...

İldən-ilə havaların isti keçməsinə qlobal istiləşmə və temperaturun yüksəlməsinin səbəb olduğunu söyləyən iqlimşünas bildirir ki, bunu həm təbii, həm də antropogen amillər yaradır: "Amma antropogen amillər, yəni insanın təsərrüfat fəaliyyəti daha çox önə çıxır. Burada söhbət əsasən atmosferin çirkləndirilməsindən gedir. Məlum olduğu kimi, sənaye cəhətdən inkişaf etmiş, eləcə də inkişaf etməkdə olan və inkişafı sürətlə gedən Hindistan, Braziliya, Meksika kimi ölkələrdə də atmosferin çirklənməsi prosesi gedir. Yəni atmosferə karbon, kükürd oksidi kimi qazların atılması daha çoxdur və həmin qazlar da atmosferdə "istixana effekti" deyilən effekt yaradır. Buna görə də Yer Günəşdən aldığı istiliyi yuxarı təbəqələrə, atmosferə ötürə bilmir və Yer üzərində temperatur yüksəlir. Bunların nəticəsidir ki, Azərbaycanda da qış aylarında temperatur əvvəlki illərə nisbətən bir qədər yüksək müşahidə edilir".

M.Həsənli deyir ki, bu istiləşmə mənfi mənada bütün təsərrüfatlara təsir edir, o cümlədən kənd təsərrüfatına: "Məsələn, püstə, badam, ərik, şaftalı, alça və bu kimi meyvə ağacları vaxtından əvvəl çiçəkləyir. Sonra isə havanın temperaturu nisbətən aşağı düşən kimi həmin çiçəklər məhv olur və bu, birinci növbədə, o ağaclardan meyvə alınmasını xeyli azaldır. Bununla yanaşı yüksək temperatur olduqda yağıntılar normadan az müşahidə edilir və torpağın məhsuldar rütubəti azalır. Bu da becərilən dənli bitkilərin gec inkişaf etməsinə, həmçinin torpaqda rütubət çatışmazlığına gətirib çıxarır".

### Bu cür insanlar meteohəssas olur

Havaların anomal keçməsinin insan orqanizminə təsirlərindən söz açan Səhiyyə Nazirliyinin baş terapevti, professor Yaqub Qurbanov söyləyir ki, insan təbiətin bir hissəsi olduğu üçün havanın orqanizmimizə təsiri də heç şübhəsizdir: "Yəni təbiətdə hava dəyişməsi, yağış, qar yağması, havanın dumanlı, çiskinli olması, maqnit sahəsi, Günəşdə olan partlayış halları bu və ya digər formada insan orqanizminə təsir göstərir. Sağlam orqanizm bu təsirləri rahat qəbul edərək onu özündən uzaqlaşdırır və onda heç bir patoloji göstəricilər görünmür. Amma yaşlılar, immuniteti zəif, uzun müddət fasiləsiz işləyən, oturaq həyat keçirən, iş qrafiki ağır olan insanlar belə halda havanın, xarici mühitin təsirlərinə çox həssas olurlar. Dərhal bu və ya digər müxtəlif simptomlar, ürək, qan-damar sistemi, sinir sistemi, mədə-bağırsaq xəstəlikləri üzə çıxır".

Baş terapevt vurğulayır ki, orqanizmin özünün tamlığının və daxili orqanların sağlamlığının vəziyyəti də bu məsələlərə təsir edir: "Bu nöqteyi nəzərdən meteohəssas insanlar əvvəlcədən öz həkimlərinə müraciət etməlidirlər. Həmçinin sahə həkimləri də bu cür meteoroloji dəyişikliklər olduqda xəstələrə baş çəkməli və onlara nəzarət etməlidirlər. Bu halda xəstələrdə qan təzyiqinin, əhvali-ruhiyyənin tez-tez dəyişməsi də müşahidə edilir. Buna görə də əvvəldən tədbirlər görülməlidir ki, həmin xəstələr xarici mühitdəki dəyişiklikləri asanlıqla qəbul etsinlər".

Y.Qurbanov meteohəssas insanlara məsləhət görür ki, daha çox açıq havada gəzintilərə üstünlük versinlər, ağır işlərdən çəkinsinlər, qidalanmalarına, yəni orqanizmlərinin möhkəmlənməsinə fikir versinlər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***


# REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
Loan No.8286-AZ

**Assignment Title: Local expert on İmprovement of Veterinary Legislation**
**Reference No.** A1/CS-12

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for consulting services.

The project consists of four components:

(i) *Component A - Support for sanitary and phytosanitary services, which is structured into three subcomponents: support: (i) Food Safety Capacity Building; (ii) Upgrading Plant Health and Phytosanitary System, and (iii) Animal Health and Veterinary Services.*
(ii) *Component B - Agrobusiness value chain development. The activities will be structured into two sub-components: (i) İnvestment and advisory support for agribusiness value chain development, and (ii) Seed sector development.*
(iii) *Component C -Financial services to agribusiness.*
(iv) *Component D - Project Management.*

**The general objective of the assignmentis** to support Azerbaijan Food Safety Agency in (i) identifying the gaps in the current legal framework governing the veterinary sector; and (ii) improving the veterinary legislation, including primary (Veterinary Law) and secondary legislation.

The veterinary legal framework currently consists of Veterinary Law dated 2005 and secondary legislation (legal normative documents/rules) arising out of the primary legislation. With the view that the Veterinary law is outdated and a number of reforms have been made in the field of food safety and agrarian services, including veterinary services since its adoption, it does not currently cover many aspects, like regulation of private veterinary services, establishment of Veterinary Statutory Body with clear definition of its rights and responsibilities, provision of animal welfare, registration and identification of animals, state veterinary control over food and non-food products, regulation of import, export and transit of veterinary goods, therefore, there is a need to revise it with the view of legal framework of the Republic of Azerbaijan, particularly Food Safety Law to be soon adopted as well as in line with international requirements, including requirements of OIE, and with consideration of intention of the Republic of Azerbaijan to harmonize with EU approach .

**Scope of work and work methodology**

The assignment of Consultant will consist of 2 (two stages). Under the first assignment stage, Consultant shall (i) arrange and join consultations of the international expert with counterparts and stakeholders on the subject; (ii) jointly with the international expert review and carry out gap analysis of the existing Veterinary Law in line with international best practice; (iii) participate in drafting the required chapters and missing parts in the Law or draft the new Law by ensuring non-contradiction of the new draft/draft parts with the national legislation and also framing/adjusting them in line with national legal language andnomo-technical practices and norms.

(iv) assist the international expert in reviewing the existing list of the secondary legislation arising from the primary legislation and developing the draft list of the required secondary legislation.

Under the second assignment stage, Consultant shall (i) arrange and join consultations of the international expert with counterparts and stakeholders on the subject; (ii) participate in reviewing and carrying out gap analysis of the existing secondary legislation arising from the primary legislation and also in developing the list of the required secondary legislation in line with international best practice and with the draft of Veterinary law (iii) contribute to revising and drafting the required secondary legislation to ensure consistency with the required norms.

The consultant shall also assist the international expert in developing Tables of Concordance in consistence and alignment with EU Regulation for support both the primary and secondary legislation if such a decision is taken.

The improved veterinary legislation shall ensure a legal framework that will allow the AFSA to fulfil its functions in the area of veterinary services such as epidemic surveillance; early detection and reporting of animal diseases, including zoonosis; rapid response to and prevention and control of animal disease and food safety emergencies; animal product food safety; the welfare of animals; and the relevant certification of animals and animal products for export and also more effectively prevent, identify and mitigate biological threats within the country.

The veterinary legislation shall be drafted in a manner that establishes clear rights, responsibilities and obligations (i.e. 'normative');

Be unambiguous, with clear and consistent syntax and vocabulary;

Be precise, accurate and consistent in the repeated use of the terminology;

Contain no definitions that create any conflict or ambiguity;

Include a clear statement of scope and objectives;

Provide for the application of penalties and sanctions, either criminal or administrative, as appropriate to the situation.

**Required input and duration of the assignment**

It is estimated that a total input of sixty (60) work/days will be required during the period of March -June 2020. The consultant will accompany international expert during all his/her missions and work closely with the staff of AFSA, AFSI and ASA. The first and subsequent missions of the international expert to Azerbaijan will be scheduledin consultation with him/her and AFSA.

The Consultant will assist the international expert in screening the current Veterinary Law and identifying gaps and parts of the law, which are subject to alignment with EU legislation and best international practices. The Consultant will provide language support to the international expert in discussions of his/her recommendations with the AFSA, ASA and all concerned parties.

**The shortlisting criteria are:**

- Master and higher university degree in law;
- Over ten years' experience in writing laws, regulations and normative acts;
- Previous experience of work in the area of food and veterinary is preferable;
- Previous experience in donor funded projects (WB and EU -funded projects) and understanding of its requirements is preferable;
- Excellent written and spoken Azerbaijani and English languages;
- Sharing knowledge and experience, communicating ideas and managing information flow;
- Good inter-personal and communication skills.

The Agricultural Competitiveness Improvement Project now invites eligible individual consultants to indicate their interest in providing the services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's Guidelines: *Selection and Employment of Consultants under İBRD Loans and İDA Credits & Grants] by World Bank Borrowers, January 2011 edition, revised July 2014* ("Consultant Guidelines"), setting forth the World Bank's policy on conflict of interests.

A Consultant will be selected in accordance with the Individual Consultancy method set out in the Consultant Guidelines.

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by February 19, 2020.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**25E, Nobel avenue, Baku White City Business Center, AZ1025, Baku, Azerbaijan**
**Tel: (+99 412) 525 01 17**
**E-mail:**a.azimov@akia.gov.az;anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com; nargiz.acip@gmail.com;n.isgandarova@akia.gov.az
**Web:** www.akia.gov.az

Further information can be obtained at the address above during office hours 09:00 - 18:00.



# B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 05.02.2020-ci il tarixdə keçirilməsi nəzərdə tutulan İşıqlandırma sistemi üçün avadanlıq və malların satın alınması üzrə iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***


# Bəzi bölgələrdə havanın temperaturu 23 dərəcəyədək yüksələcək




Azərbaycanda fevralın 6-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, cənub-qərb küləyinin arabir güclənəcəyi gözlənilir. Havanın temperaturu Abşeron yarımadasında gecə 5-7°, gündüz 15-19° isti, Bakıda gecə 5-7°, gündüz 17-19° isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 753 millimetr civə sütununa enəcək, nisbi rütubət gecə 65-75, gündüz 40-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Cənub-qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 15-20°, bəzi yerlərdə 23°-dək isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti olacağı ehtimal edilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, fevralın 6-da Abşeron yarımadasında atmosfer təzyiqinin enməsi fonunda güclü gilavar küləyinin üstünlüyü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişsizdir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 2°-dək isti, dağlıq ərazilərdə 5-9° şaxta, gündüz 9-14° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-7°, gündüz 15-20° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 14-19° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 12-17° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 15-20°, bəzi yerlərdə 23°-dək isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-8°, gündüz 15-20° isti, dağlarda gecə 1-2°, gündüz 12-17° isti olacağı ehtimal edilir.

# Ermənistan silahlı qüvvələri sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, fevralın 6-da Tərtər rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Mixail Olaru və Martin Şuster keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç, Gennadi Petrika və Saymon Tiller aparacaqlar.

# Azərbaycan hərbçiləri Moskvada keçiriləcək hərbi paradda iştirak edəcəklər

Azərbaycan Ordusunun hərbi qulluqçuları mayın 9-da Moskvada Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 75 illiyinə həsr olunmuş hərbi paradda iştirak edəcəklər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təntənəli mərasimdə ölkəmizi Azərbaycan Ordusunun bayraqdarları və 75 hərbi qulluqçudan ibarət heyət təmsil edəcək.

# Xarici ölkələrin Azərbaycandakı hərbi attaşeləri Cəmşid Naxçıvanski adına Hərbi Liseydə olub

Azərbaycan Respublikası Müdafiə nazirinin təsdiq etdiyi illik fəaliyyət planına əsasən, xarici ölkələrin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri üçün Cəmşid Naxçıvanski adına Hərbi Liseyə tanışlıq səfəri təşkil edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 13 dövlətin hərbi attaşelik aparatının 16 nümayəndəsinə əvvəlcə hərbi liseyin tarixi və fəaliyyəti barədə ümumi brifinq təqdim edilib. Sonra qonaqlar liseydəki tədris prosesi ilə tanış olublar.

Hərbi attaşelər ziyarətin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.






# DÜNYA






● Münaqişə



# Liviya probleminin həlli düyünə düşüb

## QUTERRİŞ: "Ölkədə atəşkəs rejiminin pozulması biabırçılıqdır"

**Liviyada 2011-ci ildə Müəmmər Qəzzafi rejimi devrildikdən sonra davam edən vətəndaş müharibəsinin sonu görünmür. Münaqişənin tərəflərini danışıqlar masası arxasında oturdub silahlı qarşıdurmaya dinc vasitələrlə son qoymaq cəhdləri hələ də nəticəsiz qalır. Ölkədə hakimiyyət uğrunda mübarizə aparan və xaricdən dəstəklənən qüvvələr iddialarından əl çəkib normal həyata qayıtmaqdan uzaq görünür.**

Gərginlik o həddə gəlib çatmışdır ki, BMT-nin baş katibi Antoniu Quterriş Liviyada atəşkəs rejiminin pozulmasını və beynəlxalq embarqoya baxmayaraq, ölkəyə ardı-arası kəsilməyən silah təchizatını biabırçılıq kimi qiymətləndirmişdir. O hesab edir ki, Liviyaya dair Berlin konfransının bəyannaməsini imzalamış bəzi ölkələrin hərəkətləri əldə olunmuş razılaşmalara hazırkı mərhələdə ziddir. Quterriş nəzərə çarpdırmışdır ki, planetin bir sıra regionlarında, o cümlədən Liviyada gərginlik artmaqda davam edir, hadisələrin gedişini proqnozlaşdırmaq mümkün olmadığından vəziyyət nəzarətdən çıxa bilər. O qeyd etmişdir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri sənədin üstündə mürəkkəb qurumamış pozulur. Baş katibin fikrincə, bu gün "ümid küləyi ağılsızlıq küləyi ilə əvəzlənmişdir".

Beynəlxalq təşkilatın rəhbərinin narahatlığı əsassız deyil və mövcud reallığa əsaslanır. Məlumata görə, BMT Təhlükəsizlik Şurasının Şimali Afrika dövlətinə münasibətdə tətbiq etdiyi silah embarqosu davamlı olaraq pozulur. Belə ki, Liviyaya hələ də Birləşmiş Ərəb Əmirlikləri və Misirdən silah-sursat daxil olur. Ölkədə həmçinin Sudan və Rusiyadan gəlmiş minlərlə muzdlu döyüşçü var. Silah-sursat və muzdlular münaqişə tərəflərindən birinin - Qəzzafinin keçmiş tərəfdarı, istefada olan general Xəlifə Həftərin başçılıq etdiyi qiyamçı "Liviya milli ordusu"nun (LMO) sərəncamındadır. Üstəlik Fransa, Səudiyyə Ərəbistanı və regionun bir sıra digər ölkələri LMO-nu bu və ya digər şəkildə dəstəkləyirlər. Eyni zamanda Türkiyə münaqişənin digər tərəfinə - Faiz Sərracın başçılıq etdiyi legitim Liviya Barışıq Hökumətinə (LBH) hərbi dəstək verir. Türkiyəli hərbi müşavirlər ötən ay Liviyanın paytaxtı Trablisə gəlmişlər. Onlar yalnız qanuni hökumətin qoşunlarına təlim verir, onların keçirdiyi əməliyyatları əlaqələndirirlər. Hələlik Liviyaya Türkiyə ordusunun nizami hissələrinin göndərilməsindən söhbət getmir. Özü də Ankara artıq bəyan etmişdir ki, məhmətcik Liviyada döyüş əməliyyatlarında iştirak etməyəcək, qanuni hökumətin hərbi komandanlığına məsləhət verməklə kifayətlənəcək.

Liviyada atəş Türkiyə və Rusiya prezidentləri Rəcəb Tayyib Ərdoğan və Vladimir Putinin təşəbbüsü ilə ötən ayın 12-də dayandırılmışdır. Gözlənildiyinə görə, münaqişənin tərəfləri keçən ayın 12-13-də Rusiyanın paytaxtı Moskvada danışıqlar zamanı atəşkəs rejimini davamlı şəklə salmaq üçün müvafiq saziş imzalayacaqlar. Rusiya və Türkiyənin yüksək vəzifəli təmsilçiləri ilə yanaşı, Sərrac və Həftər də Moskvada idilər. Beynəlxalq birliyin tanıdığı MBH-nin başçısı sazişi imzalamışdı. LMO-nun rəhbərinə gəlincə, o, əvvəlcə sənədlə tanış olmaq üçün möhlət istəmiş, sonra isə sazişi imzalamadan Rusiya paytaxtını tərk etmişdi.

Atəşin dayandırılması haqqında sazişin imzalanması üçün daha bir cəhd keçən ayın 19-da Almaniyanın paytaxtı Berlində Liviya üzrə beynəlxalq konfransda edilmişdi. 16 ölkənin və beynəlxalq təşkilatın nümayəndələrinin qatıldığı konfrans bəyannamə qəbul edərək Liviyaya silah-sursat göndərilməsinə qoyulmuş qadağaya əməl olunması və bu ölkədə münaqişə tərəflərinə hərbi dəstəyə son qoyulması barədə razılığa gəlmişdilər. Konfransın iştirakçıları həmçinin yekdilliklə qərara gəlmişdilər ki, ərəb ölkəsində davam edən münaqişənin hərbi həll yolu yoxdur. Lakin yenə də atəşkəs sazişinin imzalanması mümkün olmamışdı, hərçənd həm Sərrac, həm də Həftər konfrans təşkilatçılarının dəvətini qəbul edərək Berlinə gəlmişdilər.

İstər Moskva, istərsə də Berlin danışıqlarının uğursuzluqla nəticələnməsi Liviyanın gələcəyini sual altında qoyur. Doğrudur, atəşkəs rejimi elan ediləndən bəri münaqişə tərəflərinin heç biri irimiqyaslı əməliyyat keçirməmiş, qarşıdurmanın taleyini həll etmək üçün qəti addım atmamışdır. Bununla belə, vəziyyətin normallaşacağına ümid bəsləmək lazım gəlmir. LMO-nun rəhbərləri müntəzəm olaraq bəyan edirlər ki, münaqişə yalnız döyüş meydanında həllini tapacaq. Qiyamçıların belə bir sərt mövqe tutması onların MBH-dən hərbi cəhətdən üstün olması, çoxsaylı ölkələrdən hərbi və maliyyə yardımı almasından qaynaqlanır. Ötən ilin aprelindən paytaxt Trablisə hücum edən və şəhəri zəbt etməyi qarşısına məqsəd qoyan qiyamçılar legitim hökumətin zaman keçdikcə zəifləyəcəyini gözləyirlər. Onları narahat edən yalnız Türkiyənin münaqişəyə müdaxilə etməsi ehtimalıdır. Ona görə də LMO-nun silahlıları Trablisin yaxınlığında MBH-nin nəzarəti altında olan Mitiqə hərbi aeroportunu mütəmadi olaraq raket atəşinə tuturlar.

Belə bir məqamı qeyd etmək lazımdır ki, beynəlxalq və regional aktorların Liviya münaqişəsinə marağının son iki ay ərzində artması təsadüfi görünmür. Belə ki, Türkiyə Liviya legitim hökuməti ilə keçən ilin dekabrında Aralıq dənizində eksklüziv iqtisadi zonanın məhdudlaşdırılması haqqında saziş imzalamışdır. Sənəd Türkiyənin Aralıq dənizinin şərqində qanuni sərhədlərini dünyaya elan etmiş, müəyyən edilmiş dəniz sahəsində neft-qaz axtarışı və qazıntının sənədləşdirilməsində söz sahibi ölkələr Türkiyə və Liviya olmuşdur. Saziş imzalandıqdan dərhal sonra dənizyanı dövlətlər, ilk növbədə Yunanıstan sənədin ləğv edilməsinə nail olmaq üçün hərəkətə keçmişdir. Ardınca Avropa İttifaqı yeni Türkiyə-Liviya sazişinin beynəlxalq qanunvericiliyə zidd olduğunu iddia etmişdir, halbuki beynəlxalq qanunların hansısa şəkildə pozulmasından söhbət gedə bilməz. Odur ki, sazişi qüvvədən salmağın yeganə yolu Trablisdəki qanuni hökuməti devirməkdir.

Məlumdur ki, Avropa dövlətləri və LMO-nu dəstəkləyən region ölkələri Türkiyənin Aralıq dənizində hansısa fəaliyyətini istəmir, onu dənizin sahilinə sıxışdırmağı hədəfləyir. Öz növbəsində Ankara rəqiblərinin planlarını nəzərə alaraq milli maraqlarını müdafiə etmək üçün zəruri addımlar atır. Liviya legitim hökumətinin dəvəti ilə ərəb ölkəsinə hərbi müşavirlər göndərmək qərarı həmin addımlar sırasındadır.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

● İslamofobiya

# Quranı təhqir etdi, polisə sığındı

"İnstaqram"ın 16 yaşlı istifadəçisinin islamı nifrət dini adlandırması Fransada söz azadlığı barədə geniş müzakirəyə səbəb olmuşdur. Sosial şəbəkədə Qurani-kərimi təhqir etmiş qız bir müddət keçdikdən sonra irqçi olmadığını bildirmişdir. Eyni zamanda o, təhqiramiz sözlərini geri götürməyəcəyini vurğulamışdır.



Bundan sonra Mila adlı qızın ünvanına tənqid yağışı başlamışdır. Bəzi şərhçilər onu ölümlə hədələmişlər. Qorxudan məktəbə getməyən qız "İnstaqramda"kı səhifəsini qapatmışdır.

Mila Fransanın TMC telekanalında "Bu gün" proqramına müsahibəsində həyatında fasilə yarandığını bildirmiş və məktəbə getməməsini ona qarşı mövcud təhlükə ilə izah etmişdir. Yeniyetmə müsahibəsində üzrxahlıq etmiş və kobud ifadələrinin internetdə yayılmasından təəssüfləndiyini bildirmişdir. Lakin o, söylədiklərinin mənasından imtina etməmişdir: "Bəli, mən küfr danışmaq istəyirdim. Mən heç də dediklərimdən təəssüflənmirəm. Mən həqiqətən belə fikirləşirəm".

Fransa Müsəlmanları Şurasının başçısı Məhəmməd Musəvinin dediyinə görə, Milanın söylədikləri nə qədər ağır olsa da, ona qarşı ölüm təhdidlərinə bəraət qazandırmır.

Polis hadisə ilə əlaqədar iki təhqiqat açmışdır: Milanın söylədiklərində nifrətin qızışdırılması əlamətlərinin olub-olmaması və onun həyatına təhlükə yaradanlarla bağlı. Birinci işə xitam verilmişdir. Hakimiyyət orqanlarının gəldiyi qənaətə görə, Mila din barədə şəxsi fikrini açıqlamış və heç kəsi şəxsən təhqir etməmişdir. Fransada dünyəvi Konstitusiya qüvvədədir və küfrə qarşı heç bir qanun yoxdur.

Srağagün Fransanın Daxili İşlər naziri Kristof Kastaner parlamentdə çıxış edərkən Milanın və onun ailəsinin polisin nəzarəti altına alındığını bildirmişdir.

Təhsil naziri Jan-Mişel Blanker demişdir ki, Milanı məktəbə və normal həyata qaytarmaq üçün tədbirlər görülür. Ədliyyə naziri Nikol Bellube təhdidləri qəbulolunmaz saymış, amma əlavə etmişdir ki, möminlərin heysiyyətinin təhqir olunması vicdan azadlığı prinsipinin pozulmasıdır.

Sağçı Milli Cəbhənin lideri Marin le Pen Milanı qətiyyətlə dəstəkləmiş və bildirmişdir ki, bu qızın "son 30 il ərzində hakimiyyətdə olmuş bütün siyasi qüvvələrdən daha çox cəsarəti var".

Öz növbəsində senator Loran Rossinyol qeyd etmişdir ki, Ədliyyə nazirinə Konstitusiya hüququ fənnindən "2" verilməlidir. Çünki Fransada hansısa dinin tərəfdarlarını təhqir etmək qadağandır, lakin dinin özünü və onun rəmzlərini təhqir etmək olar. Sonradan Bellube söylədiklərinin korrekt olmadığını etiraf etmişdir.




● Miqrasiya

# Yunanıstanda miqrantların vəziyyəti ağırdır

Yunanıstan hökuməti hələ ki Lesbos adasında fövqəladə vəziyyət rejimi tətbiq etməmək qərarına gəlmişdir. Lakin orada vəziyyətin ağır olduğu etiraf edilir. Bu barədə "BBC News" telekanalı xəbər verir.



Srağagün minlərlə miqrant "Moriya" düşərgəsindən adanın inzibati mərkəzi - Mitilini şəhəri istiqamətində yürüş etmişdir. Yolda qaçqınlar zibilləri və çəmənliklərdə quru otu yandırmışlar. Onlar düşərgədə yaşayış şəraitini yaxşılaşdırmağı tələb etmişlər. Miqrantları şəhərin mərkəzinə buraxmayan polis əməkdaşları onlara qarşı gözyaşardıcı qazdan və səs qumbaralarından istifadə etmişlər.

Baş verən hadisələrdən qorxuya düşən Lesbos sakinləri şəhərə və kəndlərə girişlərdə daim polis əməkdaşlarının olmasını tələb etmişlər. Yerli hakimiyyət orqanlarının fikrincə, vəziyyət nəzarətdən çıxa bilər. Şimali Egey adalarının qubernatoru Kostas Musuris məsələ ilə əlaqədar demişdir: "Birincisi, miqrantları adalardan köçürmək lazımdır. İkincisi, bütün qeyri-hökumət təşkilatları diqqətlə yoxlanılmalıdır. Üçüncüsü, bizə daha çox həkim lazımdır: təkcə ötən il 13 min miqrant tibbi yardım üçün müraciət etmişdir. Adalardakı xəstəxanalarda çarpayılar və personal çatışmır".

Rəsmi Afina isə sakitliyə və səbr etməyə çağırmış, fövqəladə vəziyyət rejimi tətbiq etməkdən çəkinmişdir. Miqrantların İşləri Nazirliyi bu ilin yayınadək "müvəqqəti" düşərgə statusu olan "Moriya"nı qapatmağı və qaçqınları digər mərkəzlərə paylamağı vəd edir. "Moriya" əvvəlcə 3 min miqrant üçün nəzərdə tutulmuşdur. Ancaq hazırda orada təxminən 20 min nəfər məskunlaşmışdır.

Xatırladaq ki, ötən ilin noyabrında mərkəzi hökumət Egey dənizindəki beş adada (Lesbos, Xios, Samos, Kos və Leros) 5 min miqrant üçün yeni mərkəzlər tikməyi təklif etmişdir. Lakin yerli hakimiyyət orqanları bu rəqəmə qarşı çıxmış və təkid etmişdir ki, miqrantların sayı 1000 nəfəri ötməsin.

Bu ilin əvvəlindən ölkəyə 3 min miqrant gəlmişdir. Ötən il Yunanıstan 74600 qaçqın qəbul etmişdir.

## Türkiyədə 88 terrorçu zərərsizləşdirilib

Ötən ay Türkiyə Daxili İşlər Nazirliyi 7998 əməliyyat keçirmiş, nəticədə 88 terrorçu zərərsizləşdirilmişdir. Bu barədə Daxili İşlər nazirinin müavini İsmayıl Çataklı məlumat vermişdir.

Çataklının dediyinə görə, zərərsizləşdirilmiş terrorçulardan 40 nəfəri yaxalanmış, qalanları silahı yerə qoyaraq könüllü şəkildə təhlükəsizlik qüvvələrinin əməkdaşlarına təslim olmuşdur. Terrorçuların 45-i PKK-nın, 43-ü İŞİD-in üzvüdür. Yanvarın 8-dən bəri ölkənin beş bölgəsində davam edən "Kapan" adlı antiterror əməliyyatlarında 3900 asayiş keşikçisi və 256 xüsusi təyinatlı qrup iştirak edir.

Çataklı bildirmişdir ki, əməliyyatlar zamanı terrorçuların 19 əlaltısı saxlanmış, onların 94 mağarası və sığınacağı məhv edilmiş, 17 ədəd odlu silah, 7 min döyüş sursatı, 40 əldəqayırma partlayıcı qurğu və 25 əl qumbarası müsadirə olunmuşdur.

## Son iki ayda Suriyanı 500 min nəfərdən çox adam tərk edib

Son iki ay ərzində yarım milyondan çox adam Suriyanın şimal-qərbində yerləşən İdlib əyalətindən qaçmağa məcbur olmuşdur. Bu barədə BMT-nin Humanitar Məsələlər İdarəsinin mətbuat katibi Devid Svonson məlumat vermişdir.

Dekabrın 1-dən bəri təxminən 520 min nəfər ev-eşiyini tərk etmişdir. Svonsonun dediyinə görə, qaçqınların 80 faizi qadın və uşaqlardır. O, həmçinin qeyd etmişdir ki, onların qışda yaşayış yerini dəyişməsi regionda dəhşətli humanitar vəziyyəti daha da ağırlaşdırmışdır.

İdlibdə yaranmış vəziyyətlə əlaqədar ABŞ, Fransa və Böyük Britaniya BMT Təhlükəsizlik Şurasından brifinq tələb etmişdir. BMT baş katibinin Suriya üzrə xüsusi elçisi Geyr Pedersenn və BMT-nin Humanitar Məsələlərinin Əlaqələndirilməsi İdarəsinin nümayəndələrinin də iştirak edəcəyi iclas bu gün keçirilə bilər.

## Meksikada iki il ərzində 953 polis əməkdaşı öldürülüb

Meksikada 2018-ci il yanvarın 1-dən 2020-ci il yanvarın 31-dək olan dövr ərzində xidməti vəzifələrini icra edərkən azı 953 polis əməkdaşı qətlə yetirilmişdir. Bu barədə "Causa Comun" ("Ümumi iş") qeyri-hökumət təşkilatı məlumat vermişdir.

Ölənlərin 482-si bələdiyyə, 413-ü regional, 58-i federal polisdə çalışmışdır. Polislər daha çox Quanaxuato, Gerrero, Mexiko, Miçiqan, Puebla və Xalisko ştatlarında həlak olmuşlar. Təşkilatın hesabatında qeyd olunur ki, hüquq-mühafizə orqanları əməkdaşlarının zorakı ölümlə həlak olmaq riski adi vətəndaşlarla müqayisədə dörd dəfə çoxdur. Eyni zamanda hakimiyyət orqanları polisi lazımi resurslarla və avadanlıqlarla təchiz etmir. Polis əməkdaşlarının qətli isə tez-tez cəzasız qalır.

## Tramp: "Venesuelada zülmü aradan qaldıracağam"

ABŞ Prezidenti Donald Tramp ölkədə vəziyyətlə bağlı Konqres qarşısında illik hesabat çıxışında bildirmişdir ki, Venesuelada "zülm aradan qaldırılacaq". Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

Tramp həmçinin ölkə Prezidenti Nikolas Maduronu öz xalqı ilə sərt davranan "qanunsuz hökmdar və zülmkar" adlandırmışdır. Bundan sonra o, zalda əyləşən Venesuela müxalifətinin lideri Xuan Quaydoya müraciət edərək vurğulamışdır ki, ABŞ onu ölkənin "əsl və qanuni prezidenti" hesab edir.

● Sağlamlıq

# Çində koronavirus tüğyan edir

## Mütəxəssislər yeni tipli virusu elə də təhlükəli hesab etmirlər



Əhalinin sayına görə dünyanın ən böyük ölkəsində - Çində 2019-nCoV koronavirusun yayılması sürətlənir. Son məlumata görə, ölkədə 490 nəfər yeni tipli koronavirusun doğurduğu sətəlcəmdən ölmüşdür. Srağagün xəstəliyə 3870 yeni yoluxma halı aşkarlanmışdır. Xəstələnənlərin ümumi sayı 24324 nəfərə çatmışdır.

Bu arada Yaponiyada koronavirusdan yeni yoluxma halları qeydə alınmışdır. Göyərtəsində 3700 nəfər olan "Diamond Princess" səyahət gəmisinin 10 sərnişinində virus aşkarlanmışdır. Gəmi sərnişinləri ilə birgə cari ayın 3-dən bəri Yokohama limanında karantinə qoyulmuşdur. Koronavirusa yoluxması məlum olmuş ilk sərnişin 80 yaşlı kişi idi. Xəstələrin hamısı Kanaqava prefekturundakı xəstəxanaya çatdırılmışdır. Səyahət gəmisi iki həftəyədək karantində qalacaq.

Virusun doğurduğu xəstəlik artıq 24 ölkədə qeydə alınmışdır. Bununla belə, yeni tipli koronavirusun dünya miqyasında yayılmasından danışmaq hələ tezdir. Bu bəyanatla Dünya Səhiyyə Təşkilatının (DST) pandemik və epidemik xəstəliklər bölməsinin rəhbəri Silviya Brian çıxış etmişdir. Onun dediyinə görə, söhbət hələlik çoxlu ocaqları olan koronavirusun epidemiya mərhələsindən gedir. Brian əlavə etmişdir ki, "bu ocaqların hər birini söndürməyə çalışırıq".

Bəs yeni tipli koronavirus doğrudanmı dəhşətli dərəcədə təhlükəlidir? Axı hər il adi qripdən dünyada on minlərlə xəstə ölür. Bəlkə yeni xəstəlik təhlükəsi şişirdilmişdir?

2019-nCoV koronavirusu həqiqətən dəhşətli mənzərə yaradır: yüzlərlə adam ölmüş, on minlərlə adam xətəliyə yoluxmuşdur. Çoxları elə düşünür ki, dünyada yeni təhlükəli epidemiya meydana çıxmışdır. Lakin mütəxəssislər hesab edirlər ki, bu heç də belə deyil. Epidemik proses yayılma, epidemiya və pandemiyadan ibarətdir. Xəstəliyin mərhələlərə bölünməsi yoluxanların sayı və yayılma coğrafiyasına əsaslanır.

Şübhəsiz, yeni virus təhlükəlidir, amma problem süni şəkildə xeyli şişirdilmişdir. Hazırda 2019-nCoV koronavirusuna yoluxma ehtimalı son dərəcə azdır. Adi qrip daha təhlükəlidir. Məsələn, Yerin şimal yarımkürəsində hər ilin payız və qışında əhalinin 15 faizə qədəri xəstələnir, rekord sayda insan - 290 mindən 680 min nəfərədək adam ölür. Ona görə də DST yeni tipli koronavirusa yoluxma coğrafiyasını pandemiya elan etməkdən vaz keçmişdir.

Mütəxəssislərin fikrincə, 2003-cü ildə Çində peyda olmuş SARS koronavirusu 2019-nCoV-dən daha təhlükəli idi. 17 il əvvəl klinik vəziyyət daha ağır idi.

Ekspertlər hesab edirlər ki, Çin koronavirusunun yayılmasının getdikcə dayanması gözlənilir. Çünki yeni virus haqqında məlumat yetərlidir, müalicə yanaşmaları müəyyənləşdirilmiş, xəstəliyin yayılması lokallaşdırılmışdır. Ona görə də vəziyyət tezliklə yaxşılaşacaq.

Hələliksə koronavirusun yayılması dayanmayanadək insanlar immuniteti qoruyub saxlamalıdırlar. Burada standart tövsiyələrə əməl olunmalıdır: insan düzgün və müntəzəm qidalanmalı, kifayət qədər yatmalı, zərərli vərdişləri olmamalı, gigiyena qaydalarına riayət etməli və mövcud xəstəlikləri ilə mübarizə aparmalıdır. Daha bir vacib tələb: adamların çox toplaşdığı yerlərdən kənarda qalmaq lazımdır. Hətta virusa yoluxma baş verəndə təcrid vəziyyətində qalmaq, yaxud heç olmasa adamların toplaşdığı yerlərdə maska taxmaq vacibdir. Əlbəttə, vaksin də kömək edir. Bundan əlavə, adi qripdən peyvəndlənmə insanı hətta koronavirusdan xilas edir.

Təkrar

## “Azərişıq”ASC 2020-ci ildə tələb olunan 1 fazalı SMS tipli sayğacların satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1.** 1 fazalı SMS tipli sayğacların satın alınması - 400 manat

**“Azərişıq” ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93, daxili: 23-32)

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **25 fevral 2020-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **04 mart 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **05 mart 2020-ci il saat 16:00-da** Ələsgər Qayıbov küç. 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

### *tender elan edir*

**Tenderi keçirən: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**
**Ünvan: Bakı şəhəri Az 1022, S. Vurğun küçəsi, 135**

**LOT-1.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin inzibati binasında 2 ədəd Genpover (Türkiyə istehsalı) 1600 Kva generatorları və 2 ədəd 1600 Kva (Çətinkaya markalı, 3 hissəli, Türkiyə istehsalı) tənzimləyicilərin, 400Kva Sokomec online UPS-in, 3 ədəd 10Kva online UPS-lərin (Makelsan, İnform) 2020-ci il ərzində texniki xidmətlərinin, təmirinin, ehtiyat hissələrinin, sürtkü materiallarının satın alınması.

**LOT-2.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Aparatına dəftərxana mallarının (110 növdə) satın alınması.

**LOT-3.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin inzibati binasındakı 7 ədəd liftlərə 2020-ci il ərzində texniki xidmətin satın alınması.

**LOT-4.** Maliyyə Nazirliyinin Aparatının arxiv sənədlərinin qovluqlara cildlənməsi xidmətinin satın alınması.

**Göstərilən 4 LOT üzrə açıq tender üçün iştirak haqları elektron portalda həmin LOT üzrə səhifədə göstərilmişdir.**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müvafiq LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tenderdə iştirak haqqı bu hesaba köçürülməlidir:**

**A1.** Benefisiar (alan) bank
**Adı** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi
**Kodu:** **210005**
**VÖEN:** **1401555071**
**Müxbir hesab:** **AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.** **BIK: CTREAZ22**

**B2.** Alan təşkilat: Azərbaycan Respublikası Maliyyə Nazirliyi
**Hesab №-si** **AZ83CTRE00000000000002108571**
**Büdcə səviyyə kodu** **- 7,**
**Büdcə təsnifat kodu** **- 142330.**
**VÖEN:** **1400108191**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı verilməlidir və təminat tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri, tender təklifi ilə bank təminatı sənədlərini Portal vasitəsilə Portalda həmin tender lotu üzrə təyin edilmiş vaxtlarda təqdim etməlidirlər. Tender təklifləri elektron Portalda hər LOT üçün təyin edilən tarixdə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Şəki Suvarma Sistemləri İdarəsi 2020-ci ildə istismar tədbirləri ilə bağlı cari təmir işləri üçün mal-materialların, maşın-mexanizmlərin ehtiyat hissələrinin, sürtkü yağlarının və əsaslı təmir işlərində lazım olan tikinti materiallarının satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 3 ( üç ) LOT üzrə keçirilir:

LOT - 1. Cari təmir işləri üçün lazım olan mal-materialların satın alınması;

LOT - 2. Maşın və mexanizmlərin istismarı üçün lazım olan ehtiyat hissələrinin və sürtkü yağlarının satın alınması;

LOT - 3. Əsaslı təmir işlərində lazım olan tikinti materiallarının satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təkliflərini möhürlənmiş, imzalanmış və ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi və maliyyə imkanları.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğlərdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Şəki Suvarma Sistemləri İdarəsində (əlaqələndirici şəxs: Arif Səməd oğlu Səmədov, tel : 02424-33-84) ala bilərlər.

İştirak haqqı:
Lot 1 - 50 manat
Lot 2 - 50 manat
Lot 3 - 50 manat
İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

**Təşkilat:** **Şəki YXO Şəki Suvarma Sistemləri İdarəsi**
**Hesab:** **AZ03AİİB32051019447000201170**
**VÖEN:** **3000104011 (Şəki SSİ 3000103891)**
**Bank:** **Kapital bank Şəki filialı**
**Kodu:** **200703**
**VÖEN:** **9900003611**
**Müxbir hesab:** **AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T BIK:** **AİİBAZ 2 X**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;

2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);

3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);

4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

4.1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

4.2. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;

4.3. Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;

- Vergilər Nazirliyi tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;

- Sosial Müdafiə Fondu tərəfindən fonda borcu olub-olmaması barədə arayış;

4.4. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **25.02.2020-ci il saat 15:00-a** qədər Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **04.03.2020-ci il saat 15:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **05.03.2020-ci il saat 15:00-da** - elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 05 oktyabr 2019-cu il tarixli nömrəsində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elan üzrə keçirilən 4 LOT-dan ibarət təkliflər sorğusunun nəticələrinə əsasən LOT 1. Elektron Sənəd Dövriyyəsi üçün proqram təminatının satın alınmasında **“DO I.T” Məhdud Məsuliyyətli Cəmiyyəti** qalib olmuşdur.

Qalib şirkətlə 29 yanvar 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 26 noyabr 2019-cu il tarixdə elan edilmiş “Ayrılmış xətt tikintisinin satın alınması” üzrə açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi “Azrabitə Servis” MMC müəyyən edilmişdir.

“Aztelekom” MMC ilə “Azrabitə Servis” MMC arasında 14 yanvar 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı

### *kotirovka sorğuları elan edir*

1. Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün İP telefon aparatlarının və lisenziyaların satın alınması.
2. Azərbaycan Respublikasının Mərkəzi Bankının ofisləri üçün kresloların satın alınması.
3. Azərbaycan Respublikasının Mərkəzi Bankının inzibati binalarında istismar olunan mebel avadanlıqları və qapı-pəncərə-jalüz sistemləri üçün ehtiyat hissələrinin satın alınması.
4. Azərbaycan Respublikasının Mərkəzi Bankının ofisləri üçün bağçılıq mallarının satın alınması.
5. Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün dəmir barmaqlı səbətlərin və konteyner altlığının satın alınması.

Kotirovka sorğuları üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar.

Kotirovka sorğuları üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri ən geci 18 fevral 2020-ci il saat 18:00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və 19 fevral 2020-ci il saat 10:00-da Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

Kotirovka sorğuları üzrə əlaqələndirici şəxs - Elnur Musayev, telefon - 493-11-22 (daxili 490).

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov komissiyanın üzvləri və katibliyin rəhbərliyi Türkiyə Cümhuriyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özarala atası

**ZƏKİ BƏYİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Aerokosmik Agentliyinin baş direktoru, professor Natiq Cavadov və agentliyin kollektivi Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyevə qardaşı

**VƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Türkiyə Cümhuriyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özarala atası

**ZƏKİ BƏYİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyevə qardaşı

**VƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyevə qardaşı

**VƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyevə qardaşı

**VƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyevə qardaşı

**VƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov və universitetin kollektivi Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyevə qardaşı

**VƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Dövlət Universitetinin rektoru, professor Elxan Hüseynov və universitetin professor-müəllim heyəti Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyevə qardaşı

**VƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar Təşkilatı Komitəsi Kimya kafedrasının dosenti

**İLQAR PAŞA OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin Kimya kafedrasının əməkdaşları kafedranın dosenti

**İLQAR PAŞA OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini Əli Abdullayevə atası

**İZZƏT ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyevə qardaşı

**VƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini Əli Abdullayevə atası

**İZZƏT MÜZƏFFƏR OĞLU ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyevə qardaşı

**VƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Türkiyə Cümhuriyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özarala atası

**ZƏKİ BƏYİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

DÜZƏLİŞ

“Azərbaycan” qəzetinin 04.02.2020-ci il tarixli sayında dərc olunmuş Lənkəran Dövlət Universitetinin kotirovka sorğusundakı sənədlərin qəbulu vaxtı 06 fevral 2020-ci il saat 18:00-dək kimi oxunmalıdır.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6974
Sifariş 393
Qiyməti 40 qəpik